

# ZƏRİFƏ ƏLİYEVA

## BİOBİBLİOQRAFİYA



**Zərifə Əziz qızı Əliyeva**

**(*1923-1985*)**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏRKƏZİ ELMİ KİTABXANA**

*Azərbaycanın elm və mədəniyyət xadimləri*

# ZƏRİFƏ ƏZİZ qızı ƏLİYEVA

***BİOBİBLİOQRAFİYA***

Bakı, 2013

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ЦЕНТРАЛЬНАЯ НАУЧНАЯ БИБЛИОТЕКА**

91.9;5
Z 51

*Деятели науки и культуры Азербайджана*

# ЗАРИФА АЗИЗ гызы АЛИЕВА

***БИОБИБЛИОГРАФИЯ***

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 85237

Баку, 2013

AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES
CENTRAL SCIENTIFIC LIBRARY

*Azerbaijan's science and cultural workers*

# ZARİFA AZİZ gizi ALİYEVA

***BIOBIBLIOGRAPHY***

Baku, 2013

*Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə çap olunur*

Tərtibçi-müəllif: **Aybəniz Əliyeva-Kəngərli,** *filologiya üzrə elmlər doktoru*

Redaktorlar: **Firəngiz Hüseynova,** *AMEA Mərkəzi Elmi Kitabxanasının direktor müavini*

**İsmət Səfərov,** *AMEA Mərkəzi Elmi Kitabxanasının bölmə müdiri*

İxtisas redaktoru: **Rəna Kazımova,** *biblioqraf*

**Zərifə Əziz qızı Əliyeva: biobiblioqrafiya.**
Bakı: "Şərq-Qərb" Nəşriyyat Evi, 2013. 272 s.

**ISBN** 978-9952-404-84-5

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013

© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

*Печатается по постановлению Президиума Национальной Академии наук Азербайджана*

Автор-составитель: **Айбениз Алиева-Кенгерли,** *доктор филологических наук*

Редакторы: **Фирангиз Гусейнова,** *заместитель директора ЦНБ НАНА*

**Исмет Сафаров,** *заведующий сектором ЦНБ НАНА*

Редактор по специальности: **Рена Кязимова,** *библиограф*

**Зарифа Азиз гызы Алиева: биобиблиография.**
Баку: Издательский Дом "Şərq-Qərb", 2013. 272 с.

**ISBN** 978-9952-404-84-5

© Издательский Дом "Şərq-Qərb", 2013

*Published by decision of the Presidium Azerbaijan National Academy of sciences*

Author compilers: **Aybeniz Aliyeva-Kangarly,** *doktor of philological sciences*

Editors: **Firengiz Huseynova,** *deputy director of the Central Scientific Library of ANAS*

**Ismat Safarov,** *sectar manager of the Central Scientific Library of ANAS*

Editor on a speciality: **Rena Kazimova** *biblioqraph*

**Zarifa Aziz gizi Aliyeva: biobibliography.**
Baku: Publishing House "Şərq-Qərb", 2013. 272 p.

**ISBN** 978-9952-404-84-5

© Publishing House "Şərq-Qərb", 2013

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olur.

Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.



Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında əvəzsiz xidmətləri olan akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 7 fevral 2013-cü il.*

## РАСПОРЯЖЕНИЕ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ О ПРОВЕДЕНИИ 90-ЛЕТНЕГО ЮБИЛЕЯ АКАДЕМИКА ЗАРИФЫ АЛИЕВОЙ

В апреле 2013 года исполняется 90 лет со дня рождения выдающегося ученого Азербайджана, доктора медицинских наук, профессора, заслуженного деятеля науки, действительного члена Академии наук Азербайджанской Республики Зарифы Азиз гызы Алиевой.

Академик Зарифа ханум Алиева, внесшая существенный вклад в развитие медицинской науки в нашей республике, снискала большую славу своими солидными исследованиями по актуальным проблемам офтальмологии. Ее научно-педагогическая и общественная деятельность оказала сильное влияние на воспитание нового поколения врачей и развитие офтальмологической науки в Азербайджане.



Руководствуясь пунктом 32 статьи 109 Конституции Азербайджанской Республики, в целях обеспечения проведения 90-летнего юбилея академика Зарифы Алиевой, которой принадлежат неоценимые заслуги в развитии медицинской науки в нашей стране, постановляю:

1. Министерству здравоохранения Азербайджанской Республики совместно с Национальной Академией наук Азербайджана и Министерством образования Азербайджанской Республики подготовить и осуществить план мероприятий, посвященных 90-летнему юбилею академика Зарифы Алиевой.

2. Кабинету Министров Азербайджанской Республики решить вопросы, вытекающие из настоящего Распоряжения.

**Ильхам АЛИЕВ,**

***Президент Азербайджанской Республики***

*г. Баку, 7 февраля 2013 года.*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

## Q Ə R A R

**Bakı ş.**

23 yanvar 2013-cü il

4/3

Azərbaycan MEA-nın həqiqi üzvü Zərifə Əliyevanın anadan olmasının 90 illiyi haqqında

2013-cü il aprelin 28-də tibb elminin oftalmologiya sahəsində görkəmli alim, elm təşkilatçısı və ictimai xadim, tibb elmləri doktoru, professor, Əməkdar Elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik M.İ.Averbax adına mükafatın



laureatı Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 90 ili tamam olur.

Akademik Z.Əliyevanın həkimlik və elmi fəaliyyəti Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə və AMEA Fiziologiya institutlarında, 1982-ci ildən etibarən Moskva şəhərində SSRİ Tibb Elmləri Akademiyasında oftalmologiya elminin müxtəlif nəzəri və praktiki problemlərinə həsr edilmişdir.

Akademik Z.Əliyevanın oftalmologiyada ilk dəfə olaraq Azərbaycan peşə patologiyası sahəsində – şin və yod istehsalı, kimya, neft kimyası və elektrotexnika sənayelərində çalışan işçilərdə peşə ilə əlaqədar göz xəstəliklərinin diaqnostikası, profilaktikası və müalicəsi üzrə apardığı tədqiqatların uğurlu nəticələri 70-ci illərdə Bakı Məişət Kondisionerləri Zavodunda təşkil edilmiş Görmə orqanlarının peşə patologiyası laboratoriyasında davam etdirilmişdir. Alimin rəhbərliyi altında laboratoriyanın əməkdaşları tərəfindən zavodun və digər sənaye müəssisələrinin yüzlərlə işçisinə yüksək səviyyəli oftalmoloji yardım göstərilmişdir.

Akademik Z.Əliyeva elmi fəaliyyətini SSRİ Tibb Elmləri Akademiyasında davam etdirmiş, göz xəstəliklərinin patogenetik əsaslarının müəyyənləşdirilməsində vacib sayılan görmə orqanlarının morfoloji və histoloji

xüsusiyyətlərinin tədqiqi ilə məşğul olmuş, uzun illər ərzində istehsalat fəaliyyətinin zərərli amillərinin insan orqanizmində bu və ya digər sistemə təsirini geniş şəkildə araşdırmışdır. Alim eyni zamanda perspektivli müalicə üsulu olan iridodiaqnostikanın korrelyasiya xüsusiyyətləri üzrə tədqiqatlar aparmış, bunun əsasında profilaktik tədbirlər planı işləyib hazırlamışdır.

Akademik Z.Əliyevanın elmi nəticələri respublikada və xarici ölkələrdə çap olunmuş 185 elmi əsərdə öz əksini tapmışdır. Onun elmi rəhbərliyi ilə 7 nəfər elmlər namizədi hazırlanmışdır.

Akademik Z.Əliyeva həkimlik, elmi və elmi-təşkilati fəaliyyəti ilə yanaşı, respublikanın ictimai həyatında fəal iştirak edərək böyük xidmətlər göstərmişdir. Alim SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsinin sədr müavini, Ümumittifaq "Bilik" cəmiyyətinin və SSRİ Oftalmoloqlar Elmi Cəmiyyətinin idarə heyətlərinin üzvü, "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti akademik Zərifə Əziz qızı Əliyevanın yubileyi ilə əlaqədar QƏRARA ALIR:

1. Akademik Z.Əliyevanın 90 illiyinə həsr edilmiş yubiley yığıncağının dövlət səviyyəsində keçirilməsi barədə müvafiq qurumlar qarşısında vəsatət qaldırılsın;



2. Mərkəzi Elmi Kitabxanaya (fil.ü.e.d. A.Əliyeva-Kəngərli) tapşırılsın ki, yubiley ərəfəsində alimin həyat yolunu və elmi fəaliyyətini əks etdirən sərgi təşkil edilsin;

3. Mərkəzi Elmi Kitabxanaya (fil.ü.e.d. A.Əliyeva-Kəngərli) və "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzinə (fil.ü.e.d. Ş.Alışanov) tapşırılsın ki, akademik Z.Əliyevanın əsərlərinin biblioqrafik göstəricisi hazırlanıb nəşr edilsin;

4. Biologiya və Tibb Elmləri Bölməsinə (ak. Ə.Əmiraslanov) tapşırılsın ki, respublikanın dövri mətbuatında akademik Z.Əliyevanın həkimlik, elmi, elmi təşkilati və ictimai fəaliyyətini əks etdirən məqalələr dərc edilsin, radio və televiziyada alimin həyat və yaradıcılıq yolunu işıqlandıran verilişlər hazırlansın;

5. Qərarın icrasına nəzarət AMEA-nın birinci vitse-prezidenti akademik A.Həşimova həvalə edilsin.

**Mahmud KƏRİMOV,**
***Azərbaycan MEA-nın prezidenti***

**Vaqif FƏRZƏLİYEV,**
***Azərbaycan MEA-nın akademik-katibi***

## TƏRTİBÇİ-MÜƏLLİFDƏN

2013-cü il aprelin 28-də görkəmli alim-oftalmoloq, akademik Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olmuşdur.

Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 fevral 2013-cü il tarixində tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

Həmin sərəncama əsasən Azərbaycan MEA Rəyasət Heyəti qərar qəbul etmişdir. Qərarda Zərifə Əliyevanın elmi, pedaqoji və ictimai fəaliyyətini əks etdirən biobiblioqrafik göstəricinin tərtibi Mərkəzi Elmi Kitabxanaya tapşırılmışdır.

Akademik Zərifə Əliyevanın biblioqrafiyasına alimin kitab və monoqrafiyaları, dərs vəsaitləri, dövri mətbatda və ayrı-ayrı məcmuələrdə dərc olunmuş elmi məqalələri və b. daxil edilmişdir. Göstəricidə materiallar bir neçə bölmədə təqdim edilmişdir: *Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri; Görkəmli dövlət, elm və mədəniyyət xadimləri Zərifə Əliyeva haqqında; Əsərlərinin biblioqrafiyası; Dissertasiyalara elmi rəhbərlik; Həyatı,*



*elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında ədəbiyyat; Veblioqrafiya.*

Biobiblioqrafiyada AMEA-nın prezidenti, akademik Akif Əlizadənin "Böyük insan, unudulmaz alim" adlı məqaləsində, akademik Əhliman Əmiraslanovun "Zərifə Əliyevanın elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında qısa oçerk"ində alimin elmi-pedaqoji və ictimai fəaliyyəti, onun Azərbaycanda tibb elminin inkişafında böyük töhfələri geniş işıqlandırılıb.

Biobiblioqrafiyaya daxil olan materiallar xronoloji qaydada verilib.

Göstəricinin informasiya-axtarış aparatına alimin əsərlərinin əlifba göstəricisi, həyat və fəaliyyəti haqqında yazan müəlliflərin və həmmüəlliflərin adlar göstəricisi daxildir.

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 85237

## ОТ АВТОРА-СОСТАВИТЕЛЯ

28 апреля 2013 года исполнялся 90 лет со дня рождения видного ученого-офтальмолога, академика Зарифы Азиз гызы Алиевой.

В связи с этим 7 февраля 2013 года Президент Азербайджанской Республики Ильхам Алиев дал Распоряжение о проведении 90-летнего юбилея доктора медицинских наук, профессора, заслуженного деятеля науки, действительного члена Академии наук Азербайджана Зарифы Азиз гызы Алиевой.

Согласно данного Распоряжения Президиум НАН Азербайджана принял постановление, в котором Центральной научной библиотеке было поручено составление биобиблиографического указателя, отражающего научную, педагогическую и общественную деятельность академика Зарифы Алиевой.

Биобиблиографический указатель академика Зарифы Азиз гызы Алиевой включает книги, монографии, учебные пособия, научные статьи ученого, опубликованные в периодической печати и в отдельных сборниках и др. Материал, представленный в указателе расположен в следующих разделах: *Основные даты жизни; Научно-педагогической и общественной деятельности; Выступления на торжественной церемонии, посвященной 90-летию З.А.Алиевой; Видные государственные деятели, деятели науки и культуры о Зарифе Алиевой; Библиография трудов; Научное руководство диссертантами; Литература о жизни, научно-педагогической и общественной деятельности; Веблиография.*



В биобиблиографии представлена статья президента НАН Азербайджана, академика Акифа Ализаде “Великий человек, незабываемый ученый”, а также “Краткий очерк о научно-педагогической и общественной деятельности З.А.Алиевой” написанный академиком Ахлиман Амираслановым, в которых ярко освещены обширная научно-педагогическая и общественная деятельность Зарифы Алиевой, ее неоценимые заслуги в развитии медицинской науки в Азербайджане.

Материалы, включенные в биобиблиографию, расположены в хронологической последовательности. Биобиблиография снабжена информационно-поисковым аппаратом, включающим алфавитный указатель трудов, именной указатель соавторов и авторов, написавших о жизни и деятельности ученого.

## GÖRKƏMLİ OFTALMOLOQ ALİM, AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVANIN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏN ÇIXIŞLAR

*(27 aprel 2013-cü il)*

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

– Hörmətli xanımlar və cənablar. Hörmətli qonaqlar. Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün yubiley tədbirində iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmişsiniz.

Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi. Onun 90 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün mən Prezident kimi müvafiq Sərəncam imzalamışdım. Sərəncam əsasında müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərin çox böyük mənası var idi. Çünki bu tədbirlərdə, elmi simpoziumlarda oftalmologiya elmində gedən proseslər bir daha təhlil edilmiş, çox dəyərli fikirlər səslənmiş və bu tədbirlər oftalmologiya sənətinə, oftalmologiya elminə yeni bir töhfə olmuşdur.

Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların



görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir.

Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir, eyni zamanda, Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüşdür.

Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda, çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə bağlı da fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır.

Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, vali-

deynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə – Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi.

Bir daha demək istəyirəm ki, heç vaxt heç bir sözü, addımı ilə göstərmirdi ki, onun cəmiyyətdə hansısa xüsusi statusu vardır və bu da təbiidir, əslində belə də olmalıdır. Ancaq biz bilirik ki, bir çox hallarda belə deyil və müəyyən statusa malik olan insanlar, yaxud da ki, onların yaxınları özləri üçün xüsusi imtiyazlar tələb edirlər. Zərifə xanımın bu sahədəki hərəkətləri, davranışı da nümunə olmalıdır. Zərifə xanım çox yüksək mədəniyyətə malik olan, çox istedadlı, bilikli insan idi. Nəinki öz peşəsində, eyni zamanda, hərtərəfli istedadlı bir insan idi və bəziləri üçün o, necə deyərlər, son ümid yeri, ümid ünvanı idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı



və o məsələlərin böyük əksəriyyəti öz həllini tapırdı. Yəni daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı.

Əlbəttə ki, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Eyni zamanda, Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

Bununla bərabər, çox istedadlı insan idi, hərtərəfli istedadlı idi, musiqini çox sevirdi, istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə, ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, 1970-ci illərdə onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxırdıq.

Bu teatrı da çox sevirdi. O vaxt bu teatrın adı Musiqili Komediya Teatrı idi və demək olar ki, hər həftə bu teatra gəlirdik. Elə bir tamaşa yox idi ki, biz onu görməyək. Elə tamaşalar da var idi ki, o tamaşaları bir neçə dəfə seyr edirdik. Bəlkə də, bu gün Zərifə xanımın yubileyinin məhz bu teatrda, yenidən əsaslı təmirdən çıxmış teatrda keçirilməsi də rəmzi xarakter daşıyır.

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir. Bu da təbiidir. Hər bir insan doğmalarını öz qəlbində yaşadır. Zərifə xanımın adı əbədiləşdirilib, onun adına küçə vardır. Onun yaşadığı küçə onun adını daşıyır. Onun böyük töhfəsi olan Oftalmologiya Mərkəzi onun adını daşıyır və Mərkəzlə üzbəüz onun abidəsi ucaldılıbdır. Əlbəttə ki, onun xatirəsi, onun obrazı onu tanıyanların qəlbində yaşayır. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi.

Ancaq həyat belədir ki, heç kim deyə bilməz nə vaxt nə baş verəcəkdir.

Biz bu gün yubiley tədbirlərini keçirməklə bərabər, eyni zamanda, ölkəmizdə səhiyyə sahəsində aparılan işlərə bir daha nəzər salırıq. Xüsusilə nəzərə almalıyıq ki, bu gün bizim qonaqlarımızın arasında görkəmli alimlər, həkimlər iştirak edirlər. Son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi üçün böyük işlər görülmüşdür, islahatlar aparılmışdır. Səhiyyənin maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Həm Bakıda, həm bütün bölgələrdə indi lazımi tibb xidməti almaq üçün bütün şərait vardır. Bakıda bizim, demək olar ki, bütün əsas



tibb ocaqları ya yenidən tikilmiş, ya da orada təmir-bərpa işləri aparılmışdır.

Oftalmologiya Mərkəzi yenidən tikilmişdir və dünya miqyaslı bir mərkəzdir. Onkologiya Mərkəzinin yeni korpusları tikilmişdir. Uroloji xəstəxana yenidən qurulmuşdur – neyrocərrahiyyə, cərrahiyyə mərkəzləri, Perinatal Mərkəz, Talassemiya Mərkəzi, keçmiş "Semaşko" xəstəxanası, indi kliniki xəstəxana adlandırılır. Mərkəzi Kliniki Xəstəxana yenidən bərpa edilmişdir. Bu xəstəxananın yeni böyük korpusu tikilməkdədir. Uşaq xəstəxanaları əsaslı şəkildə təmir olunubdur. Yəni Bakıda son illər ərzində görülmüş işlər səhiyyənin maddi-texniki bazasını böyük dərəcədə gücləndirmişdir. Hazırda tikilməkdə olan Bakı Sağlamlıq Mərkəzi bir neçə böyük xəstəxananı birləşdirəcəkdir. Biz ilin sonuna qədər Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edəcəyik.

Eyni zamanda, bölgələrdə səhiyyə müəssisələrinin yaradılması, tikilməsi prosesi gedir. Hər bir şəhərdə ya diaqnostika mərkəzi, ya mərkəzi rayon xəstəxanası tikilib, yaxud da ki, təmir edilibdir. Hazırda yeddi şəhərdə təmir işləri gedir. Qarşıya vəzifə qoyulmuşdur ki, biz bir-iki il ərzində Azərbaycanda hər bir yaşayış məntəqəsində, hər bir şəhərdə, hər bir rayonda ən yüksək tibbi xidmətə nail olmalıyıq. Azərbaycana ən müasir avadanlıq gətirilir. Yəni dövlət öz tərəfindən lazımi işləri görür. Təkcə onu demək kifayətdir ki, son on il ərzində səhiyyə

xərclərinə ayrılan vəsait 11 dəfə artmışdır. Həkimlərin maaşı 6 dəfə artmışdır. Halbuki bu gün də o maaşların səviyyəsi bizi qane edə bilməz.

Bu məsələlərin gələcəkdə daha da səmərəli şəkildə həlli üçün indi hökumət işləyir. Yəni maaşlar daim qaldırılacaqdır. Ancaq biz bu dinamikanı görürük. Çox müsbət dinamikadır. Azərbaycanın ümumi inkişafına uyğun olan dinamikadır. Eyni zamanda, biz burada dövlət siyasətinin təzahürlərini də əyani şəkildə görürük. Çünki bizim siyasətimizin mərkəzində, – bunu mən dəfələrlə demişəm, – insan amili, Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Gənc nəsil sağlam böyüməlidir. Bunu etmək üçün ilk növbədə yüksək səviyyəli tibbi xidmət olmalıdır.

Biz indi iqtisadi cəhətdən güclənmişik. Yenə də deyirəm, siyasətimizin əsasında, mərkəzində Azərbaycan vətəndaşı dayandığı üçün biz maliyyə resursları cəlb etmişik. Ancaq təkcə maliyyə resurslarının cəlb edilməsi ilə iş bitmir. Eyni zamanda, peşəkarlıq artmalıdır. Kadrların hazırlanması sahəsində daha da böyük işlər görülməlidir. Hazırda bu işlər inkişafdadır. Azərbaycan həkimlərinin bir qrupu xaricdə təlim keçir. Xaricdən gələn görkəmli mütəxəssislər, alimlər Azərbaycanda fəaliyyət göstərirlər. Yəni biz gələcəkdə bu işlərə daha da çox vəsait ayıracağıq ki, peşəkarlıq artsın, Azərbaycanda səhiyyənin nəinki maddi-texniki bazası, eyni za-



manda, səviyyəsi, ümumiyyətlə, dünya standartlarına cavab versin.

Hesab edirəm ki, buna nail olmaq üçün bizim bütün imkanlarımız vardır. Yenə də deyirəm, son illər ərzində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşmüşdür. Statistlk göstəricilər də, onların dinamikası da çox müsbətdir. Həkimlər yaxşı bilir, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda körpə ölümü yüksək idi, Sovet ittifaqı dövründə digər respublikalarla müqayisədə həmişə yüksək idi. İndi uşaq ölümü kəskin şəkildə azalmışdır. İnsanların ömrünün uzunluğu artır, bu da hər bir ölkənin ümumi inkişafını şərtləndirən bir amildir. Çox sevindirici haldır ki, bu proses də müsbət istiqamətdə gedir. Azərbaycanda əhali artır. Son on il ərzində Azərbaycanda əhalinin sayı bir milyondan çox artmışdır. Azərbaycanda əhalinin artım tempi Avropa qitəsindən ən yüksəkdir.

Əlbəttə, bütün bu amillər tələb edir ki, səhiyyə sahəsində daha da ciddi islahatlar aparılsın. Həm struktur islahatları aparılmalı, eyni zamanda, ilk növbədə peşəkarlıq artmalıdır. Əminəm ki, əgər biz bundan sonra da bu templərlə inkişaf etsək, bu məsələlər də öz həllini tapacaqdır.

Azərbaycanda bu sahədə görülən işləri beynəlxalq təşkilatlar da qiymətləndirir. Bir müddət bundan əvvəl

Bakıda Dünya Səhiyyə Təşkilatı Avropa Komitəsinin konfransı keçirilmişdir və orada qeyd edilmişdir ki, Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsində çox böyük inkişaf və tərəqqi vardır.

Yəni bu, reallıqdır. Ancaq o da reallıqdır ki, hələ bəzi hallarda tibbi xidmət lazımi səviyyədə deyildir. Bəzi həkimlərin peşəkarlığı bizi qane edə bilməz və elə tibb müəssisələri var ki, orada əsaslı təmirə ehtiyac vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda bütün bu məsələlər ardıcıllıqla və yüksək templə öz həllini tapır. Bu məsələlərin həlli, bir daha demək istəyirəm ki, dövlət siyasətimizin əlamətidir. Sosial məsələlərin həlli bizim üçün prioritetdir və həmişə prioritet olaraq qalacaqdır.

Bu gözəl yubiley bir daha imkan verir ki, biz bu məsələlərə toxunaq, fikirlərimizi bildirək və böyük ümidlərlə gələcəyə baxaq. Çünki gələcəkdə Azərbaycan hər bir istiqamət üzrə inkişaf etmiş ölkəyə çevrilməlidir.

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır. Sağ olun.



***

**AR Səhiyyə naziri Oqtay ŞİRƏLİYEV:**

– Zati-aliləri möhtərəm cənab Prezident. Hörmətli qonaqlar. Xanımlar və cənablar.

Tariximizdə silinməz iz qoymuş, Azərbaycanın ən parlaq və tanınmış simalarından olan görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 90-cı ildönümüdür.

Özü cismən aramızda olmasa da, xalq onu sonsuz hörmət və məhəbbətlə xatırlayır. Bu mötəbər tədbir də alimin xatirəsinə dövlətin, xalqın, tibb ictimaiyyətinin, elm adamlarının sonsuz ehtiramının ifadəsidir.

Belə bir fikir vardır: əzmlə işləyən insanların günləri qısa, ömürləri uzun olur. Bu mənada, Zərifə xanım Əliyevanı uzunömürlü hesab etmək olar. Onun elmi əsərləri, tədqiqatları, çoxsaylı kitabları yaşadığı 62 illik ömrünə sığmır. İşıqlı xatirəsi bu gün də insanların yaddaşında, təkcə yaxınlarının və həmkarlarının deyil, həm də gözlərinə rəngarəng dünyanın nurunu bağışladığı xəstələrinin qəlblərində yaşayır. Həyatda belə böyük sevgi qazanmaq, özündən sonra belə əziz duyğular, nurlu xatirələr qoyub getmək – belə xoşbəxtlik çox az adamın taleyinə yazılır.

Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır.

Sözsüz ki, Zərifə xanımın zəngin daxili aləminin formalaşmasında ailəsinin, valideynlərinin çox böyük rolu olmuşdu. Tanınmış alim və həkim, keçmiş SSRİ-də böyük nüfuz qazanmış bir dövlət xadimi Əziz Əliyevin qızı məhz Zərifə xanım kimi olmalı idi. Akademik Mustafabəy Topçubaşovun adi həkim deyil, "bütün cəmiyyətin loğmanı" adlandırdığı Əziz Əliyev böyük ürək sahibi, geniş biliklərə, yüksək mənəviyyata malik şəxsiyyət idi. Övladlarının ona sevgisi onların sənət seçiminə də təsir etmişdir. Bu ailənin üç övladı – Tamerlan, Zərifə və Cəmil həkimlik sənətini seçmişlər.

1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Zərifə xanım bütün ömrünü oftalmologiyaya həsr etdi, seçdiyi sənətin fədaisi oldu. Onun ilk elmi-tədqiqat işlərinin mövzusunu da elə həyatın özü verdi – Azərbaycanda o dövrdə çox geniş yayılmış traxoma xəstəliyinin öyrənilməsi və müalicəsi. Bütün ölkə ərazisini əhatə edən bu tədqiqatların nəticələri gənc alimin uğurla müdafiə etdiyi namizədlik dissertasiyasında öz əksini tapdı.

İşinə həvəslə yanaşan, yeniliklər axtarışında olan Zərifə xanımın sonrakı elmi tədqiqatları da böyük praktiki əhəmiyyət daşıyırdı. Onun elmi irsində peşə ilə bağlı görmə problemi xüsusi yer tutur. İlk dəfə olaraq o, sənaye obyektlərində müxtəlif maddələrin gözə təsiri sahəsində elmi tədqiqatlar aparır, peşə patologiyasını araşdıran dünyada ilk elmi-tədqiqat laboratoriyası yaradır və nəticədə elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyur.



Uzun illər apardığı müşahidələr, kliniki tədqiqatlar əsasında Zərifə xanım Əliyeva 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə edir.

Məhz peşə xəstəliklərinin elmi araşdırmalarının uğurlu nəticələrinə görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən mötəbər mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görüldü. Diqqətəlayiqdir ki, o, bu mükafatla təltif olunan ilk qadın alim idi.

Zərifə xanımın tədqiqatları elmin yalnız bir istiqamətini əhatə etmirdi: o, oftalmologiyanın ən müxtəlif mövzularını işıqlandırır, tam fərqli xəstəliklərin səbəbini araşdırırdı. Qlaukoma, peşə oftalmologiyası, göz travmatizmi, görmə orqanının virus zədələnməsi, bədxassəli şişlər, göz yaşı yolu xəstəlikləri – bu və digər istiqamətlərdə aparılan tədqiqatların nəticələri iki yüzə

qədər məqalə, məruzə, monoqrafiyada öz əksini tapmışdı. Görkəmli alimin zəngin elmi irsi bu gün də aktualdır. Onun bir çox əsərləri, dərslikləri oftalmoloqların stolüstü kitabları kimi daim vərəqlənir, oxunur, praktiki fəallyyətlə məşğul olan göz həkimləri tərəfindən çox yüksək qiymətləndirilir.

Zərifə Əliyeva elm qarşısında böyük xidmətlərinə, çoxillik elmi tədqiqatlarına görə əməkdar elm xadimi fəxri adı ilə təltif olunmuş, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdi.

Akademik Zərifə Əliyeva təkcə öz adını tibb tarixinə yazmadı, eyni zamanda, Azərbaycan oftalmologiyasının adını bütün dünyada ucaltdı. 1977-ci ildə onun təşəbbüsü ilə Bakıda ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Dünya şöhrətli alimlərin iştirak etdiyi bu mötəbər tədbir Azərbaycan elminin gələcəyi, onun inkişafı naminə ən tanınmış elmi mərkəzlərlə birgə tədqiqatların aparılması, peşəkar kadrların hazırlanması üçün böyük imkanlar yaratdı.

Zərifə xanımın ən böyük xidmətlərindən biri də pedaqoji fəaliyyəti idi. Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru, oftalmologiya kafedrasının müdiri kimi o, həkimlərin biliyinin artırılması üçün qüvvəsini və vaxtını əsirgəmirdi.



Tələbələrinə oftalmologiyanın incəliklərini öyrədən alim böyük oftalmoloqlar nəsli yetişdirdi.

Zərifə xanım həkim-xəstə münasibətlərində də gənc həkimlərə bir nümunə idi. O, həkim etikası və tibbi ontologiya kimi çox həssas sahələrə xüsusi diqqət yetirirdi. Həkimin cəmiyyətdə roluna, onun peşəkar fəaliyyətinə həsr etdiyi çoxsaylı məqalə və çıxışları, eləcə də “Yüksək əqidə” adlı kitabı cəmiyyətimizdə həkim şəxsiyyətinin formalaşması prosesinə dəyərli töhfələr vermişdi.

Görkəmli alimin həkimlik fəaliyyətində bir məqam da qırmızı xətlə keçir. O, sadə, adi insanlara hər zaman xüsusi diqqətlə, məhəbbətlə yanaşır, onların problemlərini dinləyib ümidsiz qoymurdu.

Zərifə xanım əsl ziyalı qadın idi. Bu ziyalılıq bir tərəfdən onun biliyində və savadında, digər tərəfdən simasındakı nurla, xasiyyətindəki təmkin və nəcibliklə özünü göstərirdi. Onun ən gözəl cəhətləri bəşəriyyətə və insanlara sevgisi, sevimli işinə hədsiz bağlılıq və ailəsinə vurğunluq idi...

Tale Zərifə xanıma onu sevən, ona dəyər verən, yolunda hər cür fədakarlığa hazır olan qüdrətli bir insanı – müasir müstəqil Azərbaycanın qurucusu, bütün ömrü boyu xalqına, Vətəninə sədaqətlə xidmət etmiş Heydər Əliyevi bəxş etdi. Bu iki insanı bir-birinə təkcə sonsuz məhəbbət hissi bağlamırdı, onlar ruhən də çox yaxın

idilər. Zərifə xanım Heydər Əliyev kimi bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu...

Ulu öndər Heydər Əliyevin düz 12 il əvvəl, 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi bir fikri xatırlatmaq istəyirəm: "....Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır...".

Bir-birini üzvi surətdə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün milli dəyərlərimizi əks etdirən nümunədir. Onlar çətinliklərin öhdəsindən birgə gəlib, uğurlara birgə sevinirdilər. İki ləyaqətli övlad böyütdülər.

Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ökəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük.

Bu gün Azərbaycan siyasi və iqtisadi cəhətdən qüdrətlənir, öz inkişaf tempinə görə dünyada qabaqcıl yerlər-



dən birini tutur. Bakının çox böyük uğurla ev sahibliyi etdiyi ən mötəbər siyasi, iqtisadi, elmi, mədəni tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsindən xəbər verir, eyni zamanda, dünya ictimaiyyətinin diqqətini tariximizə, mədəniyyətimizə, incəsənətimizə cəlb edir.

Dövlət rəhbərinin sosialyönümlü siyasəti nəticəsində səhiyyə sahəsində də əhəmiyyətli nailiyyətlər vardır. Azərbaycan dövləti insanların sağlamlığını prioritet məsələ kimi daim diqqətdə saxlayır. Yeni tikilən, əsaslı təmir olunan, ən müasir avadanlıqla təchiz edilən tibb mərkəzləri, tibb işçilərinin təkmilləşməsinə verilən diqqət, gündən-günə yaxşılaşan sağlamlıq və demoqrafik göstəricilər bunun sübutudur.

Səhiyyə sahəsində qazanılan nailiyyətlərdə Heydər Əliyev Fondunun, onun prezidenti Mehriban xanım Əliyevanın da böyük zəhməti vardır. Ümumiyyətlə, onun ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişafı üçün gördüyü işlər, ulu öndərin adını daşıyan fondun həyata keçirdiyi humanitar layihələr xalqımız tərəfindən yüksək qiymətləndirilir, ona böyük hörmət və ehtiram qazandırır.

Bu yubiley ilində Zərifə xanımın xatirəsi müxtəlif tədbirlərlə yad edilir, konfranslar, simpoziumlar, görüşlər keçirilir. Dünən Bakıda oftalmologiya üzrə Beynəlxalq elmi-praktiki konfrans da Zərifə xanımın xatirəsinə, onun elmi fəaliyyətinə həsr olunmuşdu. Konfransın

işində Rusiya, Türkiyə, Almaniya, Yaponiya, Litva və digər ölkələrin alimləri iştirak edirdilər. Qonaqlarımızı konfransın keçirildiyi Zərifə xanımın adını daşıyan Milli Oftalmologiya Mərkəzi ilə tanış edərkan xatırladıq ki, vaxtilə xaricdə tibb ocaqlarının şəraitinə, muasir avadanlığına həsədlə baxırdıq. İndi isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük qayğısı və diqqəti nəticəsində biz öz səhiyyəmizi fəxrlə təqdim edirik.

Bütün bunlara görə, icazə verin, cənab Prezident, tibb ictimaiyyəti adından Sizə öz dərin minnətdarlığımızı bildirək. Bu gün bu mötəbər tədbirdə Zərifə xanımın ömür yoluna nəzər salarkən bir daha şahid olduq ki, o, əfsanəvi bir həyat yaşayıb. Çox təəssüf ki, taleyin Zərifə xanıma yazdığı ömür payı qısa oldu, o, müstəqil Azərbaycanımızın – sürətlə inkişaf edən, gələcəyə inamla baxan, gündən-günə gözəlləşən, müasirləşən Vətənimizin bugününü görmədi. Lakin qəlbimizdə bu təəssüflə yanaşı, bir inam da vardır: səhiyyəmizin tərəqqisi, tibb elmində qazanılan uğurlar görkəmli alimin xatirəsinə ucaldılan ən möhtəşəm abidədir.

Əsl yaradıcılıq, əsl elm daimidir. Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı heç zaman ürəklərdən silinməyəcəkdir.

Diqqətinizə görə minnətdaram.



***

**Türkdilli ölkələrin Oftalmologiya Cəmiyyətinin sədri xanım Sunay DUMAN:**

– Hörmətli Prezident. Hökumətin hörmətli üzvləri. Dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar, əziz həmkarlarım.

Sizə, dost və qardaş Azərbaycan xalqına ölkənin ən səmimi duyğularımı, sevgilərimi, salamlarımı çatdıraraq çıxışıma başlamaq və məni bu toplantıya dəvət etdiyinizə görə təşəkkürlərimi bildirmək istəyirəm.

Akademik Zərifə Əliyevanın adının niyə bir çox müəssisəyə verildiyi, xatirəsinə hər il nə üçün beynəlxalq yubiley tədbirləri keçirildiyi, xalqının onu niyə bu qədər sevib millətinin anası qəbul etdiyi onun həyat hekayəsindəki yaşadıqlarındadır.

Zərifə xanım hələ orta məktəbdə oxuyarkən traxomadan əziyyət çəkən insanların iztirabını hiss edir və onun öhdəsindən gəlməyi qarşısına məqsəd qoyur. Tibb İnstitutunu müvəffəqiyyətlə bitirir. Məzun olduqdan sonra yalnız xəstəxanada çalışmır, respublikanın ən ucqar yerlərinə qədər gedib traxomanın öhdəsindən gəlmək üçün bir sıra araşdırmalar aparır və nəticədə bu xəstəliyə qalib gəlməyi bacarır.

Bununla yanaşı, Zərifə xanım sənaye müəssisələrində zərərli amillərin insan gözlərinə təsiri ilə də məşğul

olur. Bu sahədəki uğurlu işləri nəlicəsində Averbax mükafatı ilə təltif edilir. Bu mövzuda yazdığı elmi əsərləri ona böyük nufuz qazandırır və 1983-cü ildə akademik seçilir.

Sizdə də, bizdə də istifadə edilən hikmətli atalar sözləri vardır: "Yuvanı quran ana quşdur", ya da "Hər bacarıqlı kişinin arxasında bacarıqlı bir qadın vardır". Atatürk "Qadının ən böyük dühası dünyaya övlad gətirmək və böyütməkdir" demişdir. Böyük zəka və düha sahibi olan Zərifə xanım da analıq vəzifəsini ən yüksək səviyyədə yerinə yetirmiş, övladları ilə dost olmuş, istedadlı gəncliyin yetişməsinə çalışmış, onlarla elm xadimi yetişdirmişdi.

Təvazökarlıq və xalqına qucaq açması ilə vətənin anası olmuş, könüllərdə taxt qurmuş Zərifə Əliyeva 62 illik qisa ömrünə elə şeylər sığdırmışdır ki, heyranlıq duymamaq mümkün deyildir. Vəfatından bu yana 28 il keçməsinə baxmayaraq, Azərbaycan qızı Zərifə Əliyevanın xatirəsinə göstərdiyi qədirbilənliyə görə ürəkdən təbrik edirəm. Qəbri nurla dolsun.

Təəssüf ki, Zərifə xanım ilə tanış ola bimədik. Ancaq böyük dövlət xadimi, möhtərəm Heydər Əliyev ilə 2000-ci ildə tanış olduğum üçün özümü çox şanslı sayıram. Mərkəzi Klinik Xəstəxananın açılışında, çox soyuq bir havada hörmətli Prezidentin sevgiyə, hörmətə, eti-



mada çağıran, qəlbləri isidən, insanları coşduran bir saatdan çox çıxışında tez-tez təkrarladığı "bir millət, iki dövlət" kəlamı hələ də qulaqlarımdadır. Bu kəlam dostluq və qardaşlığımızın ən gözəl ifadəsidir. Hörmətli sabiq Prezidentin ruhu şad olsun.

– Həmkarımız Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi xidmətləri dünyada izlənməkdə və çox təqdir qazanmaqdadır. Fondun dəstəyi ilə Milli Oftalmologiya Mərkəzinin səyyar klinikasının fəaliyyəti ilə Zərifə Əliyevanın arzuları gerçəkliyə çevrilmişdir. Hazırda Milli Oftalmologiya Mərkəzi Cənubi Qafqazın ən böyük müayinə, müalicə və müasir cərrahiyyə mərkəzidir.

Son on ildə Azərbaycan oftalmologiya sahəsində dünya ilə inteqrasiya istiqamətində ciddi addımlar atmışdır. Azərbaycanda rezidentura təhsilinin 3-4 ilə çatdırılması və təhsili Tibb Universiteti ilə Milli Oftalmologiya Mərkəzinin verməsi çox sevindirici haldır. Beləliklə də, Azərbaycan dünya ilə paralelliyi təmin etmişdir.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinə toxunan Sunay Duman əlaqələrimizin təməlində fədakarlıq, qarşılıqlı dəstək və vətənpərvərlik hisslərinin durduğunu vurğulayaraq bildirdi:

– Biz bir millət, iki dövlətik. Xocalı qətliamı bizim də içimizi yandırır. Dağlıq Qarabağ münaqişəsi ortaq

problemimizdir. Türkiyə türk dünyasının ürəyi, Azərbaycan bu ürəyin şah damarıdır. Ulu öndər Atatürkün dediyi kimi, Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Dünən belə idi, bu gün də belədir, sabah da belə olacaqdır. Yaşasın Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı! Hamınıza təşəkkür edirəm.

***

***Академик Российской академии медицинских наук, доктор медицинских наук, профессор, ректор Российской медицинской академии последипломного образования***

**Лариса МОШЕТОВА:**

– Глубокоуважаемый господин Президент! Глубокоуважаемое высокое собрание! Прежде всего, я хочу выразить слова благодарности за приглашение принять участие и выступить на столь высоком собрании. Спасибо большое!

Академик Зарифа Алиева – это имя чрезвычайно дорого всем присутствующим, и очень жаль, что сегодня мы не поздравляем с юбилеем Зарифу ханум, а говорим слова памяти, уважения и признания. Великая женщина XX века, мудрая, образованная, красивая, воспитанная, интеллигентная. Зарифа Азизовна была крупным ученым-офтальмологом и, вместе с тем, оставалась простым и очень доступным человеком. Я благодарна судьбе, что мне повезло соприкоснуться и пройти определенный отрезок жизни рядом с этой великой женщиной. До знакомства с ней я слышала очень много добрых слов от ее коллег и моих учителей. В дальнейшем добрые отношения руководителей двух кафедр Центрального института усовершенствования врачей и Азербайджанского института усовершенствования врачей послужили основой тесной дружбы этих двух коллективов. Мы проводили совместные занятия в Баку. Я помню очень хорошо, в это время я была еще молодым педагогом и очень волновалась, поскольку на лекциях присутствовали умудренные опытом педагоги азербайджанской кафедры, и нередко приходила Зарифа Азизовна. Но, несмотря на свой государственный статус, она была чрезвычайно внимательна и доброжелательна по отношению к молодым педагогам. Мы провели незабываемые дни в Баку, многое узнали об этом прекрасном городе, который хорошеет день ото дня.

А уже непосредственное знакомство с Зарифой Азизовной послужило дальнейшему научному сотрудничеству, совместно были опубликованы монографии по актуальным вопросам офтальмологии, терапевтической офтальмологии, переведенные на

иностранные языки. Зарифа Азизовна очень трепетно относилась к качеству издания, и при этом нам много помогал Гейдар Алиевич. Я встретилась с ними в Баку, когда приехала для завершения работы над этими книгами. Это были незабываемые встречи – теплые, доброжелательные и чрезвычайно профессиональные. В моей памяти сохранилось выступление Зарифы Азизовны на заседании Московского научного общества офтальмологов в Институте глазных болезней имени Гельмгольца. Она говорила о подготовке и воспитании молодежи. Это была речь политического деятеля, речь педагога и мудрого воспитателя, и все мы – и молодые, и умудренные опытом педагоги, и ученые были поражены великолепной речью, красотой построения и манерой изложения доклада.

К сожалению, жизнь Зарифы Азизовны оборвалась слишком рано, память сохранила печальные дни прощания с ней. Очень жаль.

Прошли годы, но заложенные добрые отношения офтальмологов Азербайджана и России приобрели новые качества. Совместно готовятся научные кадры, проводятся научные конференции. Тому пример великолепная конференция, прошедшая вчера. Проводятся практические консультации. Азербайджанский институт усовершенствования врачей стал действительно кузницей научных кадров, кадров практических врачей. Это красавец-институт, в который входишь как во дворец. А наш Центральный институт усовершенствования врачей стал Академией. Я являюсь ректором Академии и заведующей кафедрой офтальмологии, я очень бережно отношусь к истории наших отношений и максимально стараюсь их развивать.



*Отметив, что между двумя образовательными учреждениями заключен договор о сотрудничестве, Лариса Мошетова подчеркнула, что этот документ может стать основой для дальнейшего развития контактов, создания Ассоциации медицинских институтов усовершенствования врачей стран СНГ. Коснувшись значения, которое Зарифа ханум Алиева придавала последипломному медицинскому образованию, Лариса Мошетова сказала:*

– Наше сотрудничество в подготовке медицинских кадров, а медицина не имеет, границ, я в этом абсолютно уверена, вероятно, было бы очень полезно для всех наших пациентов, на каком бы языке они не говорили. Конечно, очень жаль, что этого уже не видят ни Зарифа Азизовна, ни Гейдар Алиевич – два дорогих для меня человека. Спасибо им, спасибо за счастье соприкоснуться с этими великими личностями. Задача здравствующих помнить их и передать память нашим ученикам.

Я хочу пожелать благополучия, процветания, как медик, здоровья азербайджанскому народу и Вам, Президент Азербайджана Ильхам Алиев. Спасибо большое!

***

***Академик Российской академии медицинских наук, доктор медицинских наук, профессор, заведующая кафедрой Медицинской академии последипломного образования***

**Алевтина БРОВКИНА:**

– Дамы и господа!

Мне хотелось бы сегодня обратиться к вам так: дорогие друзья! Вот такое обращение больше было свойственно Зарифе Азизовне. Очень много сегодня говорили о научном вкладе Зарифы Азизовны и както упустили один очень маленький нюанс. В то далекое советское время в Баку был завод кондиционеров. Зарифа Азизовна обратила внимание на некоторые офтальмологические симптомы, которые наблюдались у пациентов, работавших на этом предприятии. Неслучайно, что она начала заниматься вопросами нарушения слезоотведения, болезни слезоотводящих органов. Очень долго невозможно было понять: что



и как? И только сегодня мы знаем, есть такой синдром – синдром сухого глаза. В те годы мы о нем ничего не слышали. Но это – способность ученого предвидеть, это присуще именно тем, кто творчески работает в любом направлении.

*Подчеркнув то значение, которое академик Зарифа Алиева придавала деятельности Института глазных болезней, и поделившись своими воспоминаниями об этом институте, Алевтина Бровкина сказала:*

– В этот свой приезд я увидела институт. Вы знаете, мне даже не хочется говорить: Зарифа Азизовна была. Она там есть! Сегодня в этом Институте офтальмологии Зарифа Азизовна есть, она присутствует! Это очень важный момент.

*Отметив, что Зарифа ханум Алиева была очень интеллигентным человеком, Алевтина Бровкина особо подчеркнула ее скромность. Она сказала, что Зарифа ханум очень тепло и искренне относилась к людям, была заботливой и чутко"й матерью:*

– Здесь очень много говорилось слов, Ильхам Гейдарович, и в Ваш адрес, и в адрес Вашей семьи. Я вообще считаю, что Вы очень счастливый человек, потому что у Вас были такие мама и папа. Спасибо.

# BÖYÜK İNSAN, UNUDULMAZ ALİM

2013-cü il aprelin 28-də görkəmli oftalmoloq-alim, akademik, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Zərifə Əziz qızı Əliyevanın 90 yaşı tamam olur. Görkəmli alim, Azərbaycanın məşhur dövlət və ictimai-siyasi xadimi, tibb təhsili və səhiyyəsinin qurucularından biri olan professor Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açmışdır.

Atasının keçdiyi qeyri-adi həyat yolu Zərifə xanım üçün tarixin bir hissəsi idi. Əziz Əliyevin ömür yoluna nəzər salsaq, görərik ki, Zərifə xanım necə mürəkkəb bir dövrdə həyata qədəm qoyub. Ailənin yaşadığı bütün çətinliklər onun təbiətində öz əksini tapmış və ona bu anlarda iradəli olmağı öyrətmişdir.

Zərifə Əliyeva üçün insan, vətəndaş və alim anlayışları bölünməz bir vəhdət təşkil edirdi. O, bənzəri olmayan işıqlı bir şəxsiyyət idi. Çünki onun yanında atası Əziz Əliyev və ömür-gün yoldaşı, sadiq dostu, sonralar həyatında böyük rol oynamış, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev kimi şəxsiyyətlər vardı.

Zərifə xanımın elmə gəlməyi gözlənilən idi. Şübhəsiz ki, onun həkim-oftalmoloq peşəsini seçməsində elmə bağlı olan atanın və ailənin böyük təsiri olmuşdur.



Zərifə xanımın həyat fəlsəfəsinin kökünü hər şeydən öncə, onun uşaqlıq çağlarında axtarmaq lazımdır. Ana olduqdan sonra o, həmişə deyirdi ki, uşaqlıq çağları insanın həyatında ən vacib dövrdür və o dövrü heç nə əvəz edə bilməz. Uşaq olarkən insan xeyirxahlığın, şəfqətin nə olduğunu dərk edir və onu başa düşəndə sevincin hədsiz-hüdudsuz olduğunu anlayır.

Zərifə xanım fədakar ana idi. O, uşaqlarına xüsusi qayğı göstərirdi. Onları İlahidən verilən bir mükafat, həyatın hədiyyəsi kimi qəbul edirdi.

Zərifə xanım Əliyevanın ailəsi o dövrün qabaqcıl fikirli ziyalı təbəqəsinə aid idi. Azərbaycanın elm və mədəniyyət xadimləri onların evlərinin daimi qonaqları olardı. Dövrün görkəmli şəxsiyyətləri ilə ailəvi və mənəvi yaxınlıq, onların humanist dəyərlərlə bağlı diqqətəlayiq söhbətləri uşaqların milli ruhda formalaşmasında böyük rol oynayırdı.

Zərifə xanım, eyni zamanda, müxtəlif mədəniyyət sahələri ilə maraqlanırdı. Azərbaycan və rus dillərində gözəl danışır, elmi əsərlər yazır, dünya mədəniyyətini dərindən bilirdi.

Onun ədəbiyyat sahəsində bilikləri, incəsənət, xüsusilə təsviri sənət, rəsm əsərləri haqqında mülahizələri adamı heyrətləndirirdi. Musiqi istedadı, musiqiyə olan məhəbbəti ilə seçilirdi. Azərbaycan xalq mahnılarını

çox sevirdi, klassik və Azərbaycan bəstəkarlarının əsərlərini yüksək qiymətləndirirdi.

Maraqlıdır, Zərifə xanım kimi geniş dünyagörüşlü insan həyatın kiçik töhfələrinə sevinir, hər şeyi olduğu kimi qəbul edirdi. Amma öncə Zərifə xanım böyük oftalmoloq alim, gözəl pedaqoq idi. Bu insanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, onun fəaliyyətinə nəzər salarkən bu dahi insanın geniş diapozonlu şəxsiyyət olduğunu hər an görmək olurdu. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat, mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün örnək olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılıb və yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq bir səhifəsini təşkil edir.

Akademik Zərifə Əliyeva oftalmologiyanın aktual problemlərinə həsr olunmuş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökü-



nün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi araşdırmalar aparmışdır.

Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir. Bu istiqamətdə apardığı elmi-tədqiqat işlərinin nəticələri onun bir sıra monoqrafiyalarında geniş və ətraflı şəkildə öz əksini tapmışdır.

Zərifə xanımın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə həyata keçirdiyi tədqiqatlardır ki, onların da nəticələri həkimlər üçün yazılmış dəyərli dərs vəsaiti və monoqrafiyalarda cəmləşmişdir. Onlar oftalmoloji elmi-ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatının xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, Zərifə xanım Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiya Moskva şəhərində nəşr edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə akademik Zərifə Əliyeva yazmışdır.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir.

Zərifə xanım sözün əsl mənasında, bu sahənin ilk tədqiqatçısı olmuşdur. Alim dünyada ilk dəfə olaraq, görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktik olaraq elm aləmində yeni bir istiqamətin "peşə oftalmologiyası"-nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri problemi Zərifə xanımın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisələrində geniş miqyaslı elmi-tədqiqat işləri aparmışdır. Görmə orqanının peşə patologiyası sahəsində reallaşdırdığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Qeyd olunmalıdır ki, Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk alim-qadın idi. Məşhur oftalmoloq, akademik M.Krasnov alimin görmə orqanının peşə patologiyasının öyrənilməsinə həsr etdiyi tədqiqatları yüksək qiymətləndirərək qeyd etmişdir ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbin rəhbəri ola bilərdi.



Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə xanım Əliyeva təbabətdə öz dəst-xətti olan novator bir alim idi. O, elmi-pedaqoji fəaliyyətində təkcə çoxşaxəli elmi-tədqiqat işləri aparmaqla kifayətlənməmiş, yüksək ixtisaslı gənc alim kadrların yetişdirilməsinə və oftalmoloq-həkimlərin ixtisaslarının artırılması işinə də xüsusı diqqət yetirmişdir.

Akademik keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş SSRİ Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olaraq böyük ictimai işlər görmüşdür. Alim həmçinin "Oftalmologiya xəbərləri" jurnalının da redaksiya heyətinin üzvü olmuşdur.

Zərifə Əliyeva elmi, yaradıcı, ictimai sahələrdə göstərdiyi xidmətlərə görə orden və medallarla təltif olunmuşdur. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

Zərifə xanımın sadəliyi təkrarolunmaz idi: akademik, əməkdar elm xadimi, professor, müxtəlif mükafatlar laureatı olmağına baxmayaraq o, əlçatmaz deyildi. İşinin çoxluğuna baxmayaraq, hamının köməyinə gəlir, heç kəsdən yardımını əsirgəməzdi.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür-gün yoldaşı və qayğıkeş ana idi. Zərifə xanımın mənəvi dünyasına yaxından bələd olan insanlar "sənsiz günəşsiz qaldı günlər" deyirlər.

Zərifə xanım çox böyük həyat yolu keçmişdi: həkim – oftalmoloqdan başlayaraq AMEA-nın akademiki, professoru, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəliyi kafedrasının müdiri vəzifələrinə qədər yüksəlmişdir.

Bir təşkilatçı kimi rəhbərlik etdiyi kollektivin gücünü lazımi istiqamətə yönəldirdi. İşinə olan münasibəti, qəlbən təmizliyi hər kəs üçün nümunə idi. Zərifə xanım çox istedadlı insan idi və o bütün işlərində bu istedadı büruzə verə bilirdi.

Ömrünün son günlərinə qədər elmi tədqiqatlarını davam etdirirdi. Zərifə xanım Heydər Əliyevin layiqli həyat yoldaşı, sadiq dostu və məsləkdaşı olmuşdur.

**Akif ƏLİZADƏ,**
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***



## AKADEMİK Z.Ə.ƏLİYEVANIN ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİ HAQQINDA QISA OÇERK

Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin ailəsində anadan olmuşdur.

O, 1942-ci ildə orta məktəbi bitirmiş, elə həmin ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə oranı bitirmiş və iki il Moskva şəhərində Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçdikdən sonra vətənə qayıdaraq 1949-cu ildən etibarən 18 il ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda həkim-ordinator, elmi işçi və böyük elmi işçi vəzifələrində çalışmışdır.

1950-1953-cü illərdə Z.Ə.Əliyeva həmin institutda aspiranturada təhsilini davam etdirmişdir. O illərdə SSRİ-nin başqa cənub regionlarında olduğu kimi, Azərbaycanda da gözün konyunktivini və buynuz qişasını zədələyən, ağır nəticələrə, hətta tam korluğa səbəb olan xlamidiya etiologiyalı infeksion traxoma xəstəliyi geniş yayılmışdı. O zaman bu infeksiya və onun ağır nəticələri

ilə səmərəli mübarizə üsulları hələ aşkar edilməmişdi. Bu xəstəliklə mübarizə isə nəinki oftalmologiya elmi üçün, həm də bütövlükdə Azərbaycan Respublikası üçün mühüm səhiyyə probleminə çevrilmişdi.

Doğma xalqının sağlamlığı uğrunda mübarizəyə atılmış gənc göz həkimi Zərifə Əliyeva yalnız institut daxilində müalicə və profilaktik tədbirlərin təşkilində fəal iştirak etməklə kifayətlənməyərək, dəfələrlə Azərbaycanda traxoma xəstəliyi ən çox yayılmış rayonlara getmiş, praktik oftalmoloq-həkimlərə mühazirələr oxumuş, traxoma və başqa göz xəstəlikləri olan xəstələri müayinə və müalicə etmiş, əhali ilə çoxsaylı söhbətlər aparmış, onların arasında səhiyyə maarifini yaymışdır.

Təbiətən elmi axtarışlara, çətin problemlərin həllinə meyilli olan Zərifə xanım çoxsaylı insanların əziyyət çəkdiyi traxomaya qarşı elmi-intellektual üsullarla mübarizəyə başladıqdan sonra özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan və nəinki geniş antibakterial, həm də xlamidiyaya qarşı aktiv mübarizə spektrinə malik olan sintomitsin antibiotikinin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr etmişdir.

Bu tədqiqatların nəticələri Z.Ə.Əliyevanın 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə



sintomitsinlə müalicəsi" mövzusunda uğurla müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil etmişdir.

Traxoma ilə bağlı işləri başa çatdırdıqdan sonra Zərifə Əliyeva oftalmologiyanın başqa ağrılı problemlərinin elmi araşdırmaları ilə məşğul olmuşdur. O, vərəm, şəkərli diabet və qlaukoma kimi xəstəliklər nəticəsində gözün zədələnmə xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş bir sıra tədqiqatların müəllifidir. Bu tədqiqatların nəticələri üzrə nəşr etdirdiyi əsərlər göz xəstəlikləri klinikasının bu mühüm sahələrini elmi tutumca zənginləşdirmişdir.

1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə Zərifə Əliyevaya "oftalmologiya" ixtisası üzrə böyük elmi işçi elmi adı verilmişdir. O, 1967-ci ildə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Elmi-pedaqoji işlərlə yanaşı, Zərifə Əliyeva praktik tibbi fəaliyyətini davam etdirirdi. O, xəstələri təkcə öz klinikasında deyil, onun hüdudlarından kənarda da qəbul edib, məsləhətlər verir və onların üzərində cərrahi əməliyyatlar aparırdı. Zəngin təcrübəyə və elmi-nəzəri səviyyəyə malik olan Zərifə xanım öz bilik və bacarığını klinik və nəzəri oftalmologiyanın bir sıra aktual məsələlərinə həsr edərək yeni, uğurlu işlərin başlanğıcını qoyur.

Onlardan qlaukoma və görmə orqanının bir sıra xəstəlikləri nəticəsində gözün zədələnməsinin müayinə və müalicəsini və s. göstərmək olar. Bu məsələlərin aktuallığı Azərbaycanda kimya sənayesinin genişlənməsi və inkişafı ilə bağlı olaraq görmə üzvünə kimyəvi maddələrin təsiretmə mexanizminin praktik olaraq aşkar edilməsi zərurətindən doğurdu.

1968-ci ildən başlayaraq Z.Ə.Əliyeva peşə oftalmologiyası məsələləri ilə məqsədyönlü şəkildə və uğurla məşğul olmağa başlayır. Qeyd etmək lazımdır ki, qarşıda duran həlli vacib elmi problemlərin dairəsinin çox geniş olmasına baxmayaraq, bunların öhdəsindən bacarıqla gələn Zərifə Əliyeva əsas diqqətini gözün peşə xəstəlikləri probleminə yönəldərək bu sahədə dərin və çoxsahəli fəaliyyətini bütün həyatı boyu davam etdirmişdir.

Bununla yanaşı, o, yod, rezin və neft-kimya sənayesi müəssisələrində işləyənlərdə görmə orqanı və onun köməkçi aparatının funksiyasına, biokimyasına, mikro və ultramikrostrukturuna zərərli peşə faktorlarının təsirinə dair çoxsaylı problemlərin həlli ilə də məşğul olmuşdur.

Bu məsələləri araşdırarkən, Zərifə Əliyeva klinikada və kafedranın laboratoriyalarında işləməklə yanaşı, aylarla sənaye müəssisələrinin tibb məntəqələrində və sexlərdə olurdu. İşçilərlə bilavasitə təmasda olaraq, xəstələri müayinə edib, qeydlər aparır, sonra isə öz elmi



təhlil süzgəcindən keçirirdi. Bununla yanaşı, elmi qənətlərini dəqiqləşdirmək üçün o, heyvanlar üzərində müxtəlif təcrübələr aparmış, hətta bu təcrübələri bir çoxunu Bakı və Sumqayıt şəhərlərinin yod və şin zavodlarının və digər sənaye müəssisələrinin sexlərində həyata keçirmişdir.

Bu genişmiqyaslı və müxtəlif yönlü klinik müşahidələrin və eksperimental tədqiqatların köməyi ilə alim nəinki əsas, həm də ikinci dərəcəli peşə faktorlarının görmə orqanına və onun köməkçi aparatına bilavasitə təsirini aşkar etməyə nail olmuşdur. Bundan başqa, onun əldə etdiyi eksperimental məlumatlar həmin faktorların oxşar – incə biokimyəvi təsir mexanizmlərinin bir çox sahələrini aydınlaşdırmağa imkan vermişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri alimin "Azərbaycanın bəzi kimya sənayesi müəssisələri işçilərində görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1976-cı ildə Q.Helmhots adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı, Sovet İttifaqının aparıcı alimləri Z.Ə.Əliyevanın elmi əsərini çox yüksək qiymətləndirdilər və ona tibb elmləri doktoru elmi adı verildi.

1977-ci ildə Z.Ə.Əliyeva müsabiqə yolu ilə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru vəzifəsinə seçil-

mişdir. Bu dövrdən başlayaraq, Zərifə Əliyevanın pedaqoji fəaliyyəti daha da genişlənmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu həmin dövrdə Sovet İttifaqında ən böyük və nüfuzlu institutlardan biri idi. Bura Azərbaycanın şəhər və kəndlərindən başqa, SSRİ-nin digər respublikalarından və bölgələrindən həkimlər gəlir, ixtisaslaşma kursu keçirdilər. Kafedrada hazırlıq keçən həkimlərin çoxu Zərifə Əliyevanın dərin məzmunlu və anlaşıqlı mühazirələrini yaxşı xatırlayırlar.

1977-ci ildə professor Z.Ə.Əliyevanın təklifi və təşəbbüsü ilə Bakıda ilk dəfə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirildi. Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması barədə professor Z.Ə.Əliyevanın irəli sürdüyü təklifi bəyəndi.

Doktorluq dissertasiyasının müdafiəsindən sonra da elmi axtarışlarını intensiv surətdə davam etdirən Z.Ə.Əliyeva bir çox görkəmli alimləri və cavan oftalmoloq həkimləri bu işə cəlb edərək həmin istiqamətdə elmi-tədqiqat işləri aparır, öz elmi məktəbini formalaşdırırdı.

Onun təşəbbüsü ilə Bakı məişət kondisionerləri zavodunda gözün peşə patologiyasının unikal laboratoriyası açılmışdı. Orada klinik, funksional-diaqnostika şöbələrilə yanaşı, dünyada yeganə olan istehsalatda cərrahiyyə şöbəsi fəaliyyətə başladı.



Ekzogen faktorların görmə orqanının fəaliyyətinə təsirinin qanunauyğunluğunu tədqiq edən Z.Ə.Əliyeva belə elmi qənaətə gəlmişdir ki, həmin faktorların gözün həyat fəaliyyətinə təsirinin mahiyyətini dərindən dərk etmək üçün onun fiziologiyası haqqında təsəvvürü genişləndirmək lazımdır. Zərifə xanımın bu sahədə tədqiqatları alimin gələcək elmi fəaliyyətinin yeni səmərəli istiqamətini müəyyən etdi.

Belə ki, Zərifə Əliyevanın təklifi ilə 1979-cu ildə Azərbaycan EA A.Qarayev adına Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyası və fiziologiyası problemləri laboratoriyası yaradıldı.

Bu institutun divarları arasında gözün və onun köməkçi aparatının həm normada, həm də rezin və neft-kimya sənayesi müəssisələrində uzun müddət işləyənlərdə inkişaf edən peşə intoksikasiyası şəraitində funksiyaların həyata keçməsinin fizioloji biokimyəvi mexanizmlərinin öyrənilməsinə dair bir sıra ciddi uğurlu tədqiqatlar aparılmışdır. Bu tədqiqatların gedişində alınan materiallar əsasında Z.Ə.Əliyeva bir sıra elmi məqalə və fundamental monoqrafiyalar çap etdirmişdir: "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə siniri yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik-fizioloji təbiəti" və s. bunlardandır. Alimin bu əsərlərini təkcə fizioloqlar, peşə patoloqları və oftalmoloqlar deyil, həm də başqa

ixtisas sahibi olan həkimlər də yüksək qiymətləndirmişlər.

Onun bir sıra monoqrafiyaları, o cümlədən "Şin istehsalatında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası zamanı oftalmopatologiya", "Yod sənayesində peşə xəstəliklərinin profilaktikası" kitabları nəinki Azərbaycanda, onun hüdudlarından çox-çox uzaqlarda da tanınmışdır. Ona görə də təəccüblü deyil ki, 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində elmi tədqiqatlar silsiləsinə görə oftalmologiyanın inkişafında böyük əməyi olan professor Z.Ə.Əliyeva bu sahədə ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafata layiq görülmüşdür. Əlamətdardır ki, Z.Ə.Əliyeva bu yüksək mükafata layiq görülmüş və oftalmologiya elmində tanınmış ilk qadın – alimdir.

Etiraf etmək lazımdır ki, Z.Ə.Əliyevanın elmi maraqları yalnız peşə oftamologiyası ilə məhdudlaşmırdı. O, intensiv şəkildə bilavasitə görmə orqanının virusla zədələnməsi ilə bağlı olan məsələləri araşdırır, sadə herpes virusunun törətdiyi infeksiyaları tədqiq edirdi. Onun bu sahədə yazdığı əsərlər bu xəstəliklərin differensial diaqnostikasını və onların konservativ terapiyasını yaxşılaşdırmağa və gücləndirməyə imkan verdi. Alimin həkim-oftalmoloqlar üçün nəzərdə tutduğu dərs vəsaitlərindən "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" və s. əsərləri məhz bu məsələlərə həsr olunmuşdur.



Onun əsərlərinin bir çoxu yaşlı adamlarda görmə qabiliyyətinin zəifləməsinə səbəb olan katarakt xəstəliyinin cərrahi üsullarla müalicəsinin təkmilləşməsinə həsr edilmişdir.

Z.Ə.Əliyevanın bir sıra tədqiqatları müasir oftalmologiyanın ən mühüm problemlərindən hesab edilən qlaukoma xəstəliyinin etimologiyası, diaqnostikası və müalicəsinə həsr edilmişdir. Onun tədqiqatlarından birinin nəticəsində gözdaxili təzyiqi ölçmə üsulunun təkmilləşdirilməsi bu ağır xəstəliyin vaxtında aşkar edilməsində böyük praktik əhəmiyyət kəsb etmişdir. Alim apardığı tədqiqatlar nəticəsində bir sıra əsərlər, o cümlədən "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün yaşla əlaqədar dəyişiklikləri və görmə-sinir yolları" adlı iki monoqrafiya çap etdirmişdir.

Z.Ə.Əliyeva göz travmatizminin profilaktikası və onunla mübarizə imkanlarını da öyrənirdi. Bir sıra əsərlərində o, göz travmasının ağır nəticələrinin cərrahi üsullarla müalicəsinə mövcud metodik yanaşmaları təhlil edir və bu üsulların təkmilləşdirilməsinə dair bir sıra faydalı məsləhətlər verir ki, bu da gözün və onun köməkçi aparatının travmatik zədələrinin müalicəsinin yaxın və uzaq nəticələrini yaxşılaşdırmağa imkan verir.

Göz xəstəlikləri klinikasında fizioterapevtik üsullardan istifadənin perspektivləri də onun diqqətindən kənarda qalmamışdır. Z.Ə.Əliyevanın həmmüəlliflərlə birgə qələmə aldığı fundamental "Terapevtik oftalmologiya" adlı metodik rəhbərlik bu gün də hər bir oftalmoloqun istifadə etdiyi dəyərli əsərlərdəndir.

Alimin bir sıra əsərləri görmə orqanının bədxassəli şişlərinin diaqnostikası və müalicəsinə həsr edilmişdir. Xüsusi halda, onun araşdırmalarında göz melanoması gedişinin bəzi xüsusiyyətləri öyrənilmişdir. Bu əsərlərin nəticəsində göz qişasını zədələyən melanomanın biokimyasına aid çox maraqlı məlumatlar əldə edilmişdir.

Nəhayət, Z.Ə.Əliyeva ölkəmizdə diaqnostik təbabətin yaranmaqda olan yeni bir istiqamətinin – iridodiaqnostikanın əsasını qoyanlardan biri olmuş və elmi əsərlərinin bir çoxunu bu sahəyə həsr etmişdir. Təsadüfi deyil ki, Z.Ə.Əliyeva bu günə qədər də iridodiaqnostların stolüstü kitabı olan "İridodiaqnostikanın əsasları" adlı nadir elmi əsərin müəlliflərindən biridir.

Görkəmli alim, praktik səhiyyə üçün kadr hazırlığına və həkimlərin ixtisasının artırılmasına da ürəkdən səy göstərir, çox vaxt sərf edirdi. Bilavasitə onun rəhbərliyi altında çoxlu sayda gənc alimlər və həkim-oftalmoloq qrupları hazırlanmışdır.



Zərifə Əliyeva öz tələbələrinə dərin biliklə yanaşı, ürək hərarətini, diqqətini və zəngin həyat təcrübəsini də səxavətlə bəxş edirdi.

Həkim etikası və tibbi deontologiya ilə bağlı məsələlər Zərifə Əliyevanı həmişə düşündürür, gənc həkimlərin yetişdirilməsinə çox böyük əhəmiyyət verərək, onların cəmiyyətdə rolu və yeri, peşə fəaliyyəti və mənəvi keyfiyyətləri ilə bağlı problemlərin öyrənilməsinə və araşdırılmasına çox vaxt sərf edirdi. Onun tibb işçilərinin, həkimlərin mənəvi tərbiyəsinə, deontologiya, tibb etikası və mənəviyyat məsələlərinə həsr edilmiş "Yüksək etimad" adlı dəyərli kitabının və digər əsərlərinin həkim şəxsiyyətinin formalaşmasında böyük rolu vardır.

Zərifə Əliyeva böyük həvəs, inad və ilhamla işləyirdi. O öz fədakarlığı, yüksək vətəndaşlığı, heyrətamiz səmimiliyi və insanlara qarşı xeyirxahlığı ilə, çoxyönlü fəal işləri ilə xəstələrin, iş yoldaşlarının və tələbələrinin dərin və layiqli hörmətini və məhəbbətini qazanmışdı.

Bu cür hərtərəfli və aktiv fəaliyyəti ilə Zərifə Əliyeva təkcə peşə oftalmologiyasının deyil, həmçinin göz xəstəlikləri klinikasının bir çox mühüm elmi-praktik məsələlərinin inkişafına öz layiqli töhfəsini vermişdir. Zərifə Əliyeva öz həmkarları arasında böyük nüfuza malik idi.

Elə ona görə də o, "Вестник офтальмологии" jurnalının redaksiya heyətinin və Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü seçilmişdi.

Zərifə Əliyevanın Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilməsi onun elmi xidmətlərinin Vətəndə qanuni təsdiqi olmuşdur. Bu böyük alimin Vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlər nəsillərə örnək olacaqdır.

**Əhliman ƏMİRASLANOV,**
***akademik, SSRİ Dövlət mükafatı laureatı, Milli Məclisin deputatı***



## КРАТКИЙ ОЧЕРК НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ И ОБЩЕСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ АКАДЕМИКА З.А.АЛИЕВОЙ

Зарифа Азиз кызы Алиева родилась 28 апреля 1923 года в селе Шахтахты Шарурского района Нахичеванской Автономной Республики в семье ученого медика и впоследствии видного государственного деятеля Азербайджана, профессора Азиза Мамедкерим оглу Алиева.

В 1942 году она поступила в лечебный факультет Азербайджанского государственного медицинского института.

После окончания Института, в 1947 году она прошла курсы специализации по офтальмологии во Всесоюзном Центральном институте усовершенствования врачей в г.Москве.

Начиная с 1949 году на протяжении 18 лет она работала в Азербайджанском научно-исследовательском институте офтальмологии, пройдя здесь путь от врача-ординатора до старшего научного сотрудника.

С 1950 год по 1953 год З.А.Алиева училась в аспирантуре и после ее окончания работала до 1957 года научным сотрудником НИИ офтальмологии.

В те годы в Азербайджане, как и во многих южных регионах Советского Союза имела широкое распространение трахома – инфекционное заболевание хламидийной этиологии, поражающее коньюнктиву и оболочки глаза и оставляющего после себя тяжелые осложнения, вплоть до полной слепоты. Эффективные методы борьбы с этой инфекцией и ее осложнениями тогда еще не были разработаны, а борьба с этим заболеванием приобрело важное значение не только для офтальмологии, но и для здравоохранения Республики в целом.

Зарифа Алиева приняла активное участие в организации лечебных и профилактических мероприятий не только в стенах родного института. Она неоднократно выезжала в районы Азербайджана, где заболеваемость трахомой была особенно велика, читала лекции практическим врачам-офтальмологам, осматривала и лечила больных трахомой и многими другими заболеваниями глаз, проводила многочисленные беседы с населением.

Кроме того, она упорно работала над собой и несмотря на необычайную загруженность практической работой не оставила научную работу.

Тема ее первых научных изысканий была продиктована самой жизнью – свою исследовательскую работу она посвятила кругу вопросов, связанных с



лечением трахомы, а именно изучению возможностей эффективного использования при лечении трахомы и ее осложнений нового в то время антибиотика синтомицина, обладающего не только широким спектром антибактериальной, но и антихламидийной активностью.

Результаты этих исследований легли в основу кандидатской диссертации З.А.Алиевой “Терапия трахомы синтомицином в комбинации его с другими методами лечения”, которую она успешно защитила в 1960 году.

К этому времени она имела трехлетний стаж работы младшего научного сотрудника Института офтальмологии. В том же году она была избрана по конкурсу старшим научным сотрудником этого института.

Завершив работу по трахоме, Зарифа Алиева занялась исследованиями в других важных для офтальмологии направлениях. Так, она выполнила ряд исследований, посвященных изучению особенностей поражения глаза при туберкулезе, сахарном диабете и глаукоме. Единолично опубликованные ею работы по результатам этих исследований способствовали пополнению знаний в этих важных областях клиники глазных болезней.

В 1963 году Высшая аттестационная комиссия СССР присвоила ей ученое звание старшего научного сотрудника по специальности "офтальмология". В 1967 году З.А.Алиева была приглашена на должность доцента кафедры глазных болезней Азербайджанского института усовершенствования врачей, который к этому времени уже носил имя ее отца – профессора А.М.Алиева, руководившим этим институтом в последние годы своей жизни.

Этот период своей жизни Зарифа Алиева продолжала заниматься активной врачебной деятельностью: она много оперирует, консультирует больных не только в своей клинике, но и за ее пределами. К этому прибавилась большая педагогическая работа с курсантами, с которыми она щедро делилась своими знаниями и опытом. Но и в это время она продолжает интенсивно заниматься наукой.

В это время проявился ее интерес к целому ряду актуальных вопросов клинической и теоретической офтальмологии, среди которых диагностика, лечение глаукомы и некоторых воспалительных заболеваний органа зрения, его травмы и др.

Но в особенности научные интересы З.А.Алиевой сконцентрировались на проблемах профессиональной патологии органа зрения – нового, в то время, направления в офтальмологии. Актуальность этих



вопросов диктовалась не только значительным расширением и развитием химической промышленности, но и тем, что множество вопросов, касающихся механизма воздействия на орган зрения целого ряда химических веществ оставались практически неизвестными.

Вопросами профессиональной офтальмологии З.А.Алиева начала целенаправленно заниматься с 1968 года. Надо подчеркнуть, что несмотря на значительный круг вопросов, которыми она занималась, глубокий и многосторонний интерес к проблеме профессиональных заболеваний глаз Зарифа Алиева пронесла через всю свою жизнь.

При этом главное внимание она уделила широкому кругу разноплановых вопросов, касающихся влияния на микро- и ультрамикроструктуру, функцию и биохимию органа зрения и вспомогательного аппарата неблагоприятных профессиональных факторов, связанных с работой человека на промышленных предприятиях йодовой, резиновой и нефтехимической промышленности.

Разрабатывая эти вопросы, З.А.Алиева работала не только в клинике или лаборатории кафедры, но многие месяцы проводила в медпунктах и цехах промышленных предприятий, где в непосредствен-

ной близости к работающим, обследовала больных, вела свои записи, которые потом, на протяжении долгих часов анализировала уже у себя в институте. Нельзя не отметить, что ею были поставлены сотни различных экспериментов на животных, причем большая их часть была проведена прямо в цехах йодного, шинного заводов и ряда других промышленных предприятий Баку и Сумгаита.

Благодаря этим широкомасштабным и разноплановым клиническим наблюдениям и экспериментальным исследованиям ученому удалось не только выявить важнейшие, но и ряд второстепенных профессиональных факторов, способных оказывать неблагоприятное воздействие как непосредственно на орган зрения, так и его вспомогательный аппарат. Более того, накопленные ею экспериментальные данные, полученные с помощью глубокопродуманных и тщательно выполненных экспериментов позволили уяснить многие стороны тонких биохимических механизмов реализации подобного воздействия этих факторов.

Результаты этих многолетних наблюдений и исследований в конечном итоге легли в основу докторской диссертации ученого на тему: "Состояние органа зрения у работников некоторых предприятий химической промышленности Азербайджана". На ее



защите, которая состоялась в 1976 году в Московском институте глазных болезней им. Г.Гельмгольца, ведущие ученые Советского Союза дали весьма высокую оценку научному труду исследовательницы, которая стала одним из пионеров отечественной профессиональной офтальмологии. В 1977 году З.А.Алиевой была присуждена ученая степень доктора медицинских наук.

В 1977 году З.А.Алиева была по конкурсу избрана профессором кафедры глазных болезней Азербайджанского института усовершенствования врачей. Спустя еще 5 лет, она избирается на должность заведующего этой кафедрой.

Расширилась ее преподавательская деятельность, к которой она относилась с большой ответственностью, понимая, что в Азербайджанский институт усовершенствования врачей, являвшийся одним из крупных и авторитетных институтов во всем Союзе, приезжают курсанты не только из городов и сел Азербайджана, но и врачи из многих республик и регионов бывшего СССР. Ее глубокие по содержанию и блестящие по форме лекции наверняка помнят многие из врачей, проходивших подготовку на кафедре, где она работала.

Защита диссертации, которая подвела итог целенаправленной работы ученого, однако, не стала за-

вершением ее работы в этой области. Более того, З.А.Алиева продолжала по-прежнему активно работать в этом направлении, привлекая к нему многих видных ученых и молодых врачей-офтальмологов.

По ее инициативе на Бакинском заводе бытовых кондиционеров была открыта уникальная лаборатория профессиональной патологии зрения, где наряду с клиническим, функционально-диагностическим отделениями, начала работать единственное в мире хирургическое отделение на производстве.

Изучая закономерности влияния экзогенных факторов на функционирование органа зрения и его вспомогательного аппарата З.А.Алиева пришла к убеждению, что для глубокого осмысления характера воздействия этих факторов на жизнедеятельность глаза необходимо углубить наши представления о его физиологии. Ее исследования в этой области в дальнейшем определили еще одно из плодотворных направлений научной деятельности ученого.

Так, по ее предложению в 1979 г. в Институте физиологии им А.И.Караева АН Азербайджанской Республики была создана проблемная лаборатория физиологии и профессиональной патологии органа зрения, в стенках которой был успешно проведен ряд серьезных исследований, посвященных изучению физиологических и биохимических механизмов



реализации функций глаза и его вспомогательного аппарата как в норме, так и в условиях профессиональной интоксикации, развивающейся при длительной работе на предприятиях резиновой и других видов нефте-химической промышленности.

По материалам, полученным в ходе этих исследований З.А.Алиева опубликоавала целый ряд научных статей и фундаментальные монографии. “Физиология слезоотделения”, “Возрастные изменения глаза и зрительно-нервного пути”, “Анатомофизиологическая характеристика гидродинамической системы глаз” и некоторые другие. Эти труды ученого получили высокую оценку не только физиологов, профпатологов и офтальмологов, но и широкой врачебной читательской аудитории.

Ряд ее монографий и, в частности “Профессиональная патология глаз в шинном производстве”, “Офтальмопатология при хронической йодовой интоксикации” и “Профилактика профессиональных заболеваний в йодной промышленности” хорошо известны не только в Азербайджане, но и далеко за его пределами. И потому, не удивительно, что в 1981 г. за цикл научных исследований в области профессиональной патологии органа зрения, внесший большой вклад в развитие офтальмологии профессор З.А.Алиева была удостоена высшей награды для

офтальмологов – премии Академии медицинских наук СССР имени академика М.И.Авербаха. Примечательно и то, что З.А.Алиева была первой ученой-женщиной, удостоенной столь высокой награды и признания офтальмологической науки.

Ради справедливости, необходимо подчеркнуть, что научные интересы З.А.Алиевой не замыкались только на проблемах профессиональной офтальмологии.

Она интенсивно изучала вопросы, непосредственно касающиеся проблемы поражения органа зрения при вирусной инфекции, вызванной вирусом простого герпеса, которая до сих пор выступает в числе ведущих причин поражения органа зрения. Результаты её работ в этой области позволили улучшить дифференциальную диагностику этих заболеваний и повысить эффективность их консервативной терапии.

Немало её работ было посвящено совершенствованию хирургических методов лечения катаракты, являющейся основной причиной снижения зрения у лиц пожилого и старческого возраста.

Немало её исследований было посвящено вопросам, касающимся диагностики и лечения глаукомы, заболевания, считающимся одной из важных проблем современной офтальмологии. Одно из этих исследований, в результате которого был усовершеенствован метод измерения внутриглазного давления, имело большое практическое значение в деле своевременной диагностики этого тяжёлого заболевания.



З.А.Алиева изучала также возможности борьбы и профилактики глазного травматизма. В ряде своих работ она проанализировала существующие методические подходы к хирургическому методу лечения последствий глазной травмы и дала ряд полезных рекомендаций по совершенствованию этого метода, что позволило улучшить непосредственные и отдалённые результаты лечения травматических повреждений глаз и вспомогательного аппарата.

Не остались вне её интереса и вопросы касающиеся перспектив использования в клинике глазных болезней физиотерапевтических методов лечения.

Ряд работ учёного был посвящён диагностике и лечению некоторых злокачественных опухолей глаз. В частности она, в своих изысканиях, изучила некоторые особенности течения меланомы глаза. В результате этих работ были получены весьма интересные данные, касающиеся оболочки глаза.

И, наконец, З.А.Алиева стала у истоков развития нового в нашей стране направления диагностической

медицины – иридодиагностики, развитию которого она посвятила целый ряд своих научных статей. Примечательно, что З.А.Алиева была в числе авторов первого отечественного руководства по иридодиагностике, которое до сегодняшнего дня остаётся в числе настоятельных руководств иридодиагностов.

Много сил и времени она уделяла делу подготовки кадров для практического здравоохранения и повышению квалификации врачей.

Под её непосредственным руководством подготовлена большая группа молодых учёных и преподавателей, врачей-офтальмологов, организаторов здравоохранения. Всем своим ученикам Зарифа ханум щедро дарила тепло своего сердца, внимание и свой богатый жизненный опыт.

Зарифа Алиеву всегда волновали вопросы врачебной этики и медицинской деонтологии. Придавая большое значение воспитанию молодых врачей, она много времени отдавала изучению и разработке проблем, связанных с ролью и местом врача в обществе, нравственными началами и его профессиональной деятельностью. Её труд “Нравственное воспитание советского врача, вопросы деонтологии, медицинской этики и морали” вносит значительный вклад в формирование личности врача.



Зарифа Алиева работала упорно, вдохновенно и увлечённо. Её врачебная самоотверженность, высокая гражданственность, необычайная душевность и отзывчивость к людям, многогранная и активная деятельность снискали ей заслуженное уважение и любовь пациентов, коллег и учеников.

Всё это даёт полное основание считать, что З.А.Алиева внесла весомый вклад в развитие не только профессиональной офтальмологии, но и многих других важных научно- практических проблем клиники глазных болезней. З.А.Алиева пользовалась большим профессиональным авторитетом, что выразилось в избрании её членом президиума Всесоюзного научного общества офтальмологов и членом редакционной коллегии журнала “Вестник офтальмологии”.

Закономерным признанием её научных заслуг на Родине стало избрание З.А.Алиевой действительным членом АН Азербайджана.

Большие заслуги этого видного учёного перед Родиной и народом, станет примером для многих поколений.

**Ахлиман АМИРАСЛАНОВ,**
***академик, лауреат госпремии СССР,***
***депутат Милли Меджлиса***

## THE SUMMARY OF THE SECIENTIFIC – EDUCATIONAL AND PUBLIC ACADEMICIAN Z.A.ALIYEVA

Zarifa Aziz gizi Aliyeva was born on April 28, 1923 in Shakhtakhty village, Sharur region in the Autonomous Republic of Nakhichevan in the family of a doctor and a future prominent statesman of Azerbaijan – Professor A.M.Aliyev.

In 1924 she entered the medical faculty of the Azerbaijan State Medical Institute.

After graduation from the Institute she attended ophthalmology specialization courses at the Central Medical Refresher Institute in Moskow.

Begining from 1949 for 18 years she had been working at the Azerbaijan Refresher Institute of Ophthalmology where she followed a path from attending physician to senior staff scientist.

From 1950 to 1953 Z.A.Aliyeva took a postgraduate course and when finished she worked as a research officer at Ophthalmology Research Institute till 1957.

At that time in Azerbaijan as well as in many other Southern regions of the Soviet Union, a wide spread of trachoma (infectious disease of chlamidia etiology, affecting conjunctiva and choroids, causing complications down to complete blindness) was detected. Since that time there were no effective methods against this infection and its complications, the fight against it was of great importance not only for ophthalmology, but also for the Public Health of the whole Republic.



Zarifa Aliyeva took an active part in the organization of medical and prophylactic activities not only at her Institute, but also in the regions of Azerbaijan, where this disiase was widely spread; she gave lectures to practical ophthalmologists, checked up and cured patients with trachoma and with many other eye diseases and talked to people.

Besides that she had been constantly working on selfimprovement and not looking at the fact that she had a lot of practical work she didn't put aside her scientific researches.

The theme of her first scientific survey was determined by life – her first research work was devoted to the quations of trachoma treatment, namely to the study of possibility of trachoma and its complications treatment by means of new antibiotic – synthomycin that had antibacterial and antichlamydial activity.

The result of these researches served as a basis of Z.A.Aliyeva's Ph.D. thesis "Trachoma Therapy with Synthomycin in the Combination with order Methods of Treatment", that was successfully defended in 1960.

By that time she had 3 years' seniority as a junior research officer of the Ophthalmology Institutte. At the same time she was elected on competitive basis as a senior research officer of that Institute.

Having finished the work on trachoma, Zarifa Aliyeva began researches in other directions important for ophthalmology. She conducted a number of researches devoted to the peculiarities of eye lesion under tuberculosis, pancreatic diabetes and glaucoma. She Personally published works on the basis of these research results, helped to enrich the knowledge in these important spheres of eye diseases clinical picture.

In 1963 the Highest Certifying Commission of the USSR gave her a rank of a senior research officer specializing in "ophthalmology". In 1967 Z.A.Aliyeva was invited to the position of senior lecturer of eye diseases department of the Azerbaijan Medical Refresher Institute that had been already named after her father – Prof. A.M.Aliyev, who headed that Institute for the last years of his life.

Z.A.Aliyeva continued her medical activity: she operated, consulted patients not only at the hospital but also outside it. In addition she gave lectures to the students; she shared with them her knowledge and her experience. But even then she continued her researches.



At that time a great interest was shown to the questions of clinical and theoretical ophthalmology, such as diagnosis and treatment of glaucoma and some other inflammatory diseases of organ of vision as well as treatment of traumas.

But scientific interests of Aliyeva were concentrated mostly on the problems of occupational pathology of organ of vision – new for that time direction of ophthalmology. The actuality of those questions was dictated not only by the expansion and development of chemical industry, but also by the fact that a whole series of questions related to the chemical agents effect on the organ of vision were unknown.

In 1968 Z.A.Aliyeva began a purposeful study of occupational ophthalmology. It should be pointed out that despite a wide circle of questions Z.A.Aliyeva dealt with, she devoted all her life to a deep and manysided interest to the problem of occupational diseases.

But with all that, the essential attetion was paid to the questions of the effect of negative occupational factors, related to the work at the factories of oidine, rubberprocessing and petrochemical industries on the micro and ultramicrostructure, function and biochemistry of organ of vision.

Studying these questions Z.A.Aliyeva worked not only at the hospital or at the laboratory of the Department but she also spent several months at first-aid posts and workshop of the plant where, in immediate proximity to the workers she examined the ill, kept her records and then analyzed them at the Institute. One can't avoid the fact that she made a number of experiments on animals, the biggest part of which was made in the workshops of iodine, tire and other industrial plants of Baku and Sumgait.

Owing to those wide – raning clinical observations and experimental researches the scientits managed to discover the most important as well as secondary occupational factors capable of affecting directly the organ of vision and also its auxiliary organ. Beside, the the stored knowledge obtained with a help of thought – out thoroughly made experiments allowed to understand many sides of delicate mechanisms of the realization of the effect of these factors.

The results of many years' observations and researches underlay the doctoral thesis: "The State of Organ of Vision of Chemical Industry Workers in Azerbaijan". During the defense of the thesis that took place in 1976 in Moscow Institute of Eye Diseases after G.HELMHOLZ, the leading scientits of the Soviet Union evaluated greatly the scientific work of the



scholar, who was one of the native occupational ophthalmology.

In 1977 Z.A.Aliyeva was given a rank of Doctor of Medicine.

In 1977 on a competitive basis Z.A.Aliyeva was elected as a Professor of Eye Disceases department of the Azerbaijan Medical Refereshed Institute. Five years later she was elected the head of that department.

Her pedagogical activity was also expanding. She was very responsible for her pedagogical activities understanding that the Azerbaijan Medical Refereshed Institute, being one of the largest and most authoritative Institutes in the Soviet Union had been attended by students from the cities and villages of Azerbaijan and also by doctors from many Republic and regions of the country. A lot of doctors, who had been trained at the department where she worked, remember her deep by content and bright by form lectures. The defence of the thesis summed up, but didn't complete her work in this direction. Besides she continued to work in that sphere, involving many prominent scientists and young ophthalmologists.

A unique laboratory of eyesight occupational pathology was opened on her intiative at the factory of airconditioners in Baku. There along with clinical and

function – diagnostic divisions the first in the world factory surgical department began operating.

While studying the regularity of effect of the exogenous factors on the fuctioning of organ of vision an its auxiliary organ, Z.A.Aliyeva made a conclusion that in order to comprehend more deeply the nature of the effect of these factors on the vital activity of an eye, one needed to extend his knowledge of its physiology.

Her researches in this sphere determined another resultative direction of the scientific effort of the scholar.

Thus, at her suggestion a problem laboratory of physology and occupational pathology of the organ of vision was founded in 1979 attached to the Institute of Physiology after A.I.Karayev. a number of serious researches were successfully conducted in this laboratory. These researches were devoted to the study of physiological and biochemical mechanisms of eye and its auxiliary organ function realization both in normal conditions and in the conditions of occupational intoxication, developed as a result of long – term work at the factories of rubber – processing and other types of petrochemical industry.

On the basis of the materials, obtained during these researches, Z,A,Aliyeva published a whole series of scientific articles and fundamental monographs: "Physiology of Epiphora", "Age – related Changes of an Eye and Optic – neural Tract", "Anatomico – physiological Characteristic of Hydrodynamie System of Eye" and some others. These works of the scientist were highly estimated not only by physiologists and ophthalmologists, but also by a wide circle of medical audience.



Some of her monographs, particularly "Occupational Pathology of Eye in the Tire Industry", "Ophthalmology under Chronic Iodide Poisoning" and "Prophylaxis of Occupational Diseases in the Iodide Industry" are well known not only in Azerbaijan, but also abroad. That is why there is no wonder that in 1981 for the cycle of scientific researches in the sphere of occupational pathology of the organ of vision that contributed greatly to the development of ophthalmology, Prof. Z.A.Aliyeva was given, the highest award for ophthalmologists – a purse of the Academy of Medical Sciences of the USSR after acad. M.I.Averbakh. It should be noted, that Z.A.Aliyeva was the first woman – scientist who obtained such a high recognition of the ophthalmologic science.

It is necessory to highlight, that scientific interests of Z.A.Aliyeva were not limited to the problems of occupational ophthalmology.

She intensively studied the questions related to the problems of organ of vision affection under the viral

infection, brought on by mere herpes that till now is considered one of main reasons of organ of vision lesion.

The results of her work in this sphere made it possible to improve the differential diagnosis of these diseases and to raise the effecttiveness of their conservative therapy.

A lot of her works were devoted to the perfection of surgical methods of cataract treatment, being the main reason of old people's eyesight worsening.

Some of her works dealt with the diagnostics and treatment of glaucoma, the disease that is considered to be one of the most important problems of modern ophthalmology. One of these researches that lead to the improvement of the intraocular pressure measurement method was of great practical importance for the well – timed diagnosis of this serious diseases.

Z.A.Aliyeva also studied the possibilities of prophylaxis and fight against eyetraumatism. In some works she analyzed the existing technical approaches to the surgical method of eye trauma conesequences treatment and gave useful recommendations for the reflection of this method. These recommendations allowed to improve direct and remote results of the treatment of eye and subsidiary organ traumatic injuries. The questions concerning the prospects of physiotherapy methods of



treatment usage in the clinical picture of eye diseases didn't remain without attention.

In some of her works the scientist paid attention to the diagnosis and treatment of malignant tumors of an eye. In particular she studied some peculiarities of eye melanoma course.

As a result of these researches she got very interesting facts concerning the choroids.

And finally Z.A.Aliyeva was at the cradles of a new direction of diagnostic medicine in our country – iridodiagnostics to the development of which she devoted a number of her works. It should be noted that Z.A.Aliyeva was one of the authors of the first manual on iridodiagnostics that until now is a handbook of iridodiagnosticians in our country.

She made much effort for training of the personnel for practical public health and raising the level of doctors' skills.

Under her direction a big group of young doctors – ophthalmologists and health professionals were trained. Zarifa khanum shared the warmness of her heart, attention and her rich life experience with her students.

Zarifa Aliyeva was always concerned about the questions of medical ethics and medical deontology.

Paying much attention to the young doctors' training, she spent a lot of time studying and solving the problems related to the role and place of a doctor in the society, moral principles and his professional activity. Her work "Moral Upbringing of Soviet Doctor, Issues of Deontology, Medical Ethics and Morality" contributed greatly to the information of the personality of a doctor.

Zarifa Aliyeva worked hard, with inspiration and enthusiasm. Her medical selflessness, high civil consciousness, extraordinary heartfullness and tenderness and many – sided activity gained her merited respect and love of the patients, colleagues and students.

Academician Z.A.Aliyeva combined her big scientific – pedagogical activity with an active public work. She was a member of the Soviet World Protection Committee.

This all gives us the opportunity to think that Z.A.Aliyeva contributed a lot into the development of not only occupational ophthalmology, but also a lot of other important scientific and practical problems of eye diseases clinical picture. Z.A.Aliyeva had a big professional authority that became apparent in her election as a member of the presidium of All – Union Scientific



Society of Ophthalmologists as well as a member of editorial board of "Ophthalmology Bulleten".

The natural acknowledge of her scientific merits in the homeland, was the election of Z.A.Aliyeva as a full member of the Azerbaijan Academy of Sciences.

**Ahliman AMIRASLANOV,**

***academician, the laureate of gospremia of the USSR, deputy of Millie Medzhlis***

# GÖRKƏMLİ DÖVLƏT, ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ AKADEMİK ZƏRİFƏ ƏLİYEVA HAQQINDA

...Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar. Ona görə də bu gün bizim üçün müqəddəs gündür...

...Bu gün xoşbəxt gündür. Çünki bu gün Zərifə xanım kimi böyük bir insan Yer üzünə gəlib, mənim həyatımı xoşbəxt edib, mənə gözəl övladlar bəxş edib. Eyni zamanda, qəmli gündür. On il keçsə də, mən bu qəmdən ayrıla bilmirəm.

**Heydər ƏLİYEV,**
***Azərbaycanın ümummilli lideri***
**1995-ci il**

***

Akademik Zərifə Əliyeva üçün insan, vətəndaş və alim anlayışları bölünməz bir vəhdət təşkil edir. O, bənzəri olmayan işıqlı bir şəxsiyyət idi. Çünki onun yanında atası Əziz Əliyev və ömür-gün yoldaşı, sadiq dostu, sonralar həyatında böyük rol oynamış, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyev kimi şəxsiyyətlər vardı.

Akademik Zərifə Əliyeva oftalmologiyanın aktual problemlərinə həsr olunmuş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi araşdırmalar aparmışdır.

Zərifə xanım çox böyük həyat yolu keçmişdi: həkim-oftalmoloqdan başlayaraq o, AMEA-nın akademiki, professor, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəliyi kafedrasının müdiri vəsifələrinə qədər yüksəlmişdir.

**Akif ƏLİZADƏ,**
***AMEA-nın prezidenti, akademik***
**2013-cü il**

***

Akademik Zərifə Əliyeva gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli tibb işçilərinin, layiqli vətən övladlarının hazırlanmasında, həkim-oftalmoloqların ixtisaslarının ilbəil artırılmasında, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir.

Akademik Z.Əliyeva Vətənini, xalqını, bütün insanları səmimi və sədaqətli bir məhəbbətlə sevmiş, peşəsinin, sənətinin vurğunu olmuşdur. Onun qəlbində vətən övladlarını qorumağa, vətənin keşiyini çəkməyə hər zaman hazır olan müqəddəs bir ana ürəyi, sıravi bir vətəndaş ürəyi, çətinliklərdən keçib oddan-alovdan adlayaraq ulduzlara doğru irəliləyən, elmin qızıl tacına yiyələnən möhtəşəm bir alim ürəyi döyünürdü.

Zərifə xanım Əliyeva özünün yazıb-yaratdığı monumental əsərləri ilə, qoyub getdiyi elmi nailiyyətləri ilə, pedaqoqluq səriştəsi, təvazökarlıq və yüksək səviyyəli mədəni irsi ilə ideal bir həkim, alim, insan kimi daim yaşayır və yaşayacaqdır. O, həmişə bizimlədir, bizim aramızda, bizim sıramızdadır. Zərifə xanım gözlərinə işıq verdiyi, nur bəxş etdiyi minlərin, milyonların qəlbində, işığında, nurunda əbədi yaşayır.

**Ə.ƏMİRASLANOV,**
***akademik, SSRİ Dövlət mükafatı laureatı,***
***Milli Məclisin deputatı***

**M.CAVADZADƏ,**
***akademik***
**2003-cü il**

***

Zərifə xanım müxtəlif peşə zərərlərinin, o cümlədən şin və yod istehsalının, toz, talk, his, kanifol, yod buxarları, turşular, qələvilər, karbohidrogenlər kimi toksik amillərin, respublikada inkişaf etmiş kimya istehsalının digər toksik maddə və məhsullarının görmə orqanına zədələyici təsirinin biokimyəvi mexanizmini tədqiq edərək, bu təsirin qanunauyğunluqlarına daha bir çox yeni elmi faktlar aşkar etmişdir. Dünya ədəbiyyatında belə fundamental tədqiqatların analoqu yoxdur.

Zərifə xanım Əliyevanın apardığı tədqiqatlardan sonra istehsalatda əmələ gələn zərərli maddələrin görmə orqanına mənfi təsirinin qarşısını almaq üçün müxtəlif profilaktik tədbirlər həyata keçirilmişdir. Bir sıra kimya

sənayesi müəssisələrində Zərifə xanım işçilərin peşə zədələnmələri ilə əlaqədar olan göz xəstəliklərinə qarşı kompleks sanitar-gigiyenik, texnoloji tədbirlər planının müəyyənləşdirilməsinə və həyata keçirilməsinə nail olmuş, əmək şəraitinin yaxşılaşdırılması, hava hövzəsinin təmizlənməsi, zavod və ona bitişik ərazilərdə çirklənmə və qazla zəhərlənmənin aşağı salınmasında misilsiz işlər görmüşdür.

Kimya istehsalında görmə orqanının profilaktikasına dair orijinal elmi əsərlər silsiləsinin çap olunması ilə əlaqədar olaraq, 1981-ci ildə Z.Ə.Əliyeva keçmiş Sovet İttifaqının Tibb Elmləri Akademiyasının oftalmoloqlar üçün təsis edilmiş akademik M.İ.Averbax adına mükafatla təltif edilmişdir. Zərifə xanım bu yüksək mükafata layiq görülmüş ilk alim qadın olmuşdur.

Zərifə xanım Əliyevanın ilk elmi fəaliyyətinin ən maraqlı və perspektiv istiqamətlərindən biri – iridodiaqnostika və iridoterapiya problemlərinin işlənilməsi olmuşdur. Bu tədqiqatların əhəmiyyəti oftalmologiya çərçivəsindən kənara çıxır və hal-hazırda bir çox dünya alimlərinin diqqətini cəlb edir.

Zərifə xanımın praktik həkimlik fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Məntiqli zəka, aydın təfəkkür sahibi olan Zərifə xanım çox gözəl, diqqətli, xəstəliyin gözə çarpmayan əlamətlərinin axtarışında yorulmaz bir



diaqnost və klinisist olmuşdur. O, müşahidələrini bir anda ümumiləşdirməyi bacarır və yeganə düzgün olan qərara gələ bilirdi. Zərifə xanımın praktik oftalmologiya üzrə geniş bilikləri, bir çox dərman preparatlarının xüsusiyyətlərinə əla bələd olması xəstələrin müalicəsini yüksək səviyyədə aparmağa imkan verirdi.

**E.M.QASIMOV,**
***akademik Zərifə Əliyeva adına***
***Milli Oftalmologiya Mərkəzinin***
***direktoru, tibb elmləri doktoru, professor***
**2007-ci il**

***

Zərifə xanım elə güclü şəxsiyyət idi ki, mənliyində qalmaq şərti ilə bir kimsənin xətrinə dəyməzdi. Hamı bilirdi ki, Zərifə xanım ona üz tutanların hamısına imkanı daxilində kömək etməyə hazırdır.

Onun elmi fəaliyyətində həyat reallığı ilə əməli tələblər arasında necə də sıx əlaqə var. Onun bütün elmi son nəticədə birbaşa əməli təcrübəyə əsaslanır və üstəlik tətbiq olunur. Belə bir lətifə söylənilir ki, bizim günlərdə ciddi elmi kəşf etmək ən adi səmərələşdirici təklifi istehsalata tətbiq etməkdən qat-qat asandır. Amma güclü, istedadlı və haqq işinə inamı olan şəxsiyyət kimi Zərifə xanıma bütün bunlar müyəssər olurdu. Şübhə

etmirəm ki, əcəl Zərifə Əziz qızına bir neçə il də möhlət versəydi, o, elm aləmində yeni bir istiqamətin "peşə oftalmologiyası", yaxud "sosial oftalmologiya"nın yaradıcısı və rəhbəri ola bilərdi.

**M.M.KRASNOV**
***Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü***
**2013-cü il**

***

Biz Zərifə Əziz qızı ilə tez-tez ailəlikcə görüşür, müxtəlif problemləri müzakirə edirdik. Qeyd etmək lazımdır ki, o olduqca maraqlı həmsöhbət idi. Hissiyyatlı və hazırcavab, habelə öz mülahizələrində prinsipial idi, siyasətdən, ədəbiyyatdan və incəsənətdən yaxşı baş çıxarırdı. Mübahisəli məsələlərdə həmsöhbətini dinləməyi bacarır, onun mövqeyini başa düşürdü. Əgər fikrinin doğruluğuna qəti inanırdısa, öz nöqteyi-nəzərini arqumentlərlə və inamla müdafiə edirdi. Xüsusən, tibb elmi və səhiyyə ilə bağlı problemlərin müzakirələri daha çox yadda qalıb.

Zərifə Əziz qızının ölümündən xeyli vaxt keçir. Onu bir daha görməyəcəyimizə, enerjili və doğma səsini bir daha eşitməyəcəyimizə inanmaq çətindir. On ilə yaxın bir vaxt ərzində bizi sıx dostluq telləri bağlayırdı. Biz ömrümüzün kamillik illərində qaynayıb-qarışmışdıq.



Həmin illər ərzində Zərifə xanım qadın cazibədarlığı, zərifliyi, ətrafdakıların dərdinə şərik olmaq bacarığı, öz işi, ailəsinə, dostlarına sadiqliyi ilə bizim hamımızı valeh edirdi. Bir yerdə qərar tutmayan, bəstəboy, iri qara gözlərindən, baxışlarından daim xeyirxahlıq yağan bu qadını heç vaxt unutmaq mümkün deyil.

**A.P.NESTEROV,**
***Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı***

**A.F.BROVKİNA**
***professor, Dövlət mükafatı laureatı***
**1995-ci il**

***

Zərifə xanım, hər şeydən əvvəl, görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O, eyni zamanda, böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırıdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik yüksək-təşkilatçılıq bacarığı da vacibdir. Məhz bütün bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi.

Zərifə xanım peşə patologiyası sahəsində görkəmli oftalmoloq, geniş profilli mütəxəssis həkim olmaqla yanaşı, həm də gözəl pedaqoq idi. Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu bir daha sübut edir.

**K.V.TRUTNEVA,**
***Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru***
**2013-cü il**

***

Офтальмологической общественности известно, что З.А.Алиева была пионером и ведущим профпатологом в области заболеваний органа зрения, т.к. именно ею было изучено влияние действия на орган зрения неблагоприятных факторов в шинном производстве и при производстве йода.

В области профпатологии Зарифа Азизовна установила не только ранние признаки поражения, их клиническую картину, но наметила и осуществила на практике обоснованные пути профилактики возможной интоксикации.

Ее труды были всегда оригинальными, новыми. Своих сотрудников кафедры и лаборатории она привлекала к активному решению вопросов глазной профпатологии.



Два фактора определяли убедительность ее сообщения. Это, во-первых, четкая логическая аргументация, представленные материалы, свидетельствующие об обоснованности излагаемого ею. Касались ли выступления профпатологической темы или деонтологических вопросов, всегда они сопровождались фактическими данными. Это были не голословные выступления в пользу или не в пользу тех или иных взглядов, как порой бывает в докладах некоторых ученых. Во-вторых, пленяло умение донести до слушателя суть излагаемого простым, доходчивым языком.

Зарифа Азизовна всегда пыталась убедить собеседника фактами, аналогиями с присущей ей деликатностью и уважением к собеседнику. Эти личные качества, конечно, были заложены с детства, воспитанием в семье, укладом домашней обстановки. При большой занятости на работе, порой даже на совещаниях, она успевала в ущерб своему времени оказать внимание окружающим коллегам, помочь словом и делом.

Многогранная одаренность Зарифы Азизовны проявилась и в искусстве: она получила музыкальное образование по классу фортепиано.

В игре на рояле Зарифа Азизовна выражала внутренние чувства, полную передачу содержания музы-

кальной вещи. Это было не "сухое" исполнение задуманных автором аккордов и мелодий, а самое глубокое понимание произведения, в сочетании с личным чувством исполнителя.

Зарифа Азизовна правомерно считает, что жизненная позиция врача определяется отношением к больному: "Только тот истинный врач, для которого страдания больного – собственные страдания... Для такого врача каждый прием, каждая беседа с человеком, пораженным недугом – моральная ответственность и перед больным, и перед обществом. И главное – перед собственной совестью."

**А.Н.ДОБРОМЫСЛОВ,**
***профессор, заведующий кафедрой глазных болезней Ленинградского санитарно-гигиенического института***
**1985 г.**

***

Как и многим из друзей и соратников безвременно ушедшей Зарифы Азизовны, мне судьба щедро даровала возможность ощущать тепло ее дружбы, испытывать радость общения с ней: я продолжаю работать над нашими совместными монографиями, которые мы вместе задумывали и разрабатывали. Я



и сегодня на страницах рукописи встречаюсь с ее мыслями и будто вижу ее добрые, умные, проницательные глаза. Мне кажется, она и сегодня где-то за сотни километров – в Баку или Москве – продолжает самозабвенно трудиться, и вот-вот зазвонит телефон, и я услышу ее призывающие и ободряющие слова: все будет хорошо, мы должны успеть в срок...

Много сил и энергии затратили организаторы, в их числе и профессор Зарифа Азизовна, чтобы конференция прошла успешно, а ее участники смогли бы ознакомиться с достопримечательностями Азербайджана, его культурой и искусством. На организованном для участников конференции приеме группу профессоров приветствовал Гейдар Алиевич Алиев.

Началась конференция. Из всех заслушанных докладов более других запомнилось выступление профессора З.А.Алиевой о профессиональном характере поражения глаз у работников в шинном производстве Азербайджана. С профессиональной заинтересованностью я слушала и отмечала про себя, что такие работы встречаются не часто.

Зарифа Азизовна была прекрасным докладчиком, очень убедительно и увлекательно излагала интересные результаты своих оригинальных научных исследований. Отмечу еще раз – в основе доклада лежала

государственная значимость исследуемой проблемы – профессионального поражения органа зрения в условиях химической промышленности.

Я хорошо знаю, как много сил и энергии затратила профессор З.А.Алиева на постановку и разработку новой проблемы – проблемы профессионального характера поражений органов зрения, наступающих при длительном воздействии на глаза комплекса производственных факторов шинного предприятия. Характеристика клиники поражения глаз у наблюдавшихся рабочих дополнялась исследованиями, направленными на выяснение стойкости функциональных и органических изменений, наступающих в органе зрения.

Научная деятельность профессора З.А.Алиевой является примером того, как медицина должна тесно увязывать свою деятельность с практическими задачами. Зарифа Азизовна внимательно изучала нужды республики.

В кругу друзей и коллег разного звания и возраста Зарифа Азизовна была исключительно проста, жизнерадостна. Она с большим чувством исполняла на фортепиано мелодии различных песен и танцев, увлекая в общий круг веселья присутствующих. По дороге домой Зарифа Азизовна выразила сожаление,



что производственные, общественные и другие дела мало времени оставляют, например, для музыки, которую она очень любит.

Как истинная дочь своего края Зарифа Азизовна по-прежнему жила Азербайджаном, занималась исследованиями, касающимися профессиональной офтальмопатологии ведущей отрасли хозяйства.

**З.М.СКРИПНИЧЕНКО,**
***доктор медицинских наук,***
***профессор***
**2013 г.**

***

Я буду говорить о ней, как о человеке, потому что главное и для академика, и для любого из нас – это человеческие качества. Зарифа Азизовна обладала многими качествами, которые высоко ценятся в человеке. Главное из них – предельная доброжелательность к людям. Я помню, как во время одного из съездов офтальмологов, в организации которого она принимала самое активное участие, один из его участников повредил ногу, и Зарифа Азизовна приняла огромное участие в устройстве его в лечебное учреждение, в организации консультаций и его лечении.

Один факт известен мне, ярко иллюструющий ее доброе отношение к людям. Зарифа Азизовна в свое время познакомилась с одной молодой девушкой, приехавшей из маленького городка поступать в институт, и приняла горячее участие в ее судьбе. Дело в том, что на экзаменах абитуриентка не получила необходимых для поступления баллов и не была принята в институт. Ее горе было таким безутешным, каким оно может быть только в ранней юности. Зарифа Азизовна сумела убедить ее, что не все потеряно, что нужно готовиться к экзаменам и поступать через год. Она помогла устроиться ей на работу в общежитие, и время от времени следила за ее подготовкой к предстоящим экзаменам. И через год эти усилия завершились успехом, определили линию молодой жизни. Такое действенное, активное внимание, направленное на оказание реальной помощи очень ценно в людях, и этим качеством Зарифа Азизовна обладала в полной мере.

**Н.А.ПУЧКОВСКАЯ,**
***Действительный член Академии медицинских наук, Председатель Украинского научного общества офтальмологов***
**1985 г.**



***

Великая Женщина XX века – мудрая, образованная, красивая, воспитанная, интеллигентная – Зарифа Азизовна была крупным ученым-офтальмологом, и при этом оставалась простым и доступным человеком.

Я благодарна судьбе за то, что мне дозволено было соприкоснуться и пройти определенный отрезок жизни рядом с Зарифой Азизовной.

Непосредственное знакомство с Зарифой Азизовной послужило в дальейшем научному сотрудничеству… К сожалению, жизнь Зарифы Азизовны оборвалась слишком рано. Прошли годы, но заложенные добрые отношения офтальмологов Азербайджана и России приобрели новые качества: совместно готовятся научные кадры, проводятся научные конференции и практические консультации. Азербайжанский институт усовершенствования врачей достойно носит имя академика Зарифы Алиевой.

Спасибо Зарифе Азизовне и Гейдару Алиевичу за счастье соприкоснуться с великими личностями.

**Л.К.МОШЕТОВА,**
***Ректор Российской медицинской академии последипломного образования Минздрава России, академик РАМН, д.м.н., профессор, заслуженный врач Российской Федерации***
**1985 г.**

***

Зарифа Азизовна была не только видным ученым, талантливым педагогом и воспитателем, активным общественным деятелем, но и человеком прекрасной души, заботливой и любящей женой, матерью, бабушкой. Ее личность – это ансамбль общественного и самостоятельного, индивидуального. В своих воспоминаниях мне хочется остановиться главным образом на характеристике Зарифы Азизовны как Человека и как Женщины.

Вся жизнь Зарифы Азизовны была отдана работе и семье. Постоянное беспокойство об организации научных исследований, о работе лаборатории – почти в каждом письме. Кроме лаборатории много времени отнимала у нее педагогическая работа. Все надо успеть сделать, все время проблемы, проблемы. Об этом она писала так: "... педагогическая работа отнимает много времени. Ведь надо серьезно готовиться. Да и в лаборатории много нерешенного. Помощники слабые, да и их очень мало. Вот обещают дать еще два научных сотрудника. Посмотрим, что будет дальше? Целый день я на ногах. А по вечерам работаю дома. Пишу кое-что. Интересно получается. Вы мое учебное пособие получили или нет? Скоро выйдет из печати другое".



Зарифа Азизовна разделяла все невзгоды и сложности ответственной государственной деятельности мужа. Она была его единомышленницей, а ее политическая, научная и культурная компетентность помогали его работе. Его дело было ее делом, его достижения – ее достижениями, его радости – ее радостями.

Зарифа Азизовна была нежной любящей матерью и бабушкой. Она близко к сердцу принимала все события жизни детей и внуков, переживала вместе с ними их неудачи, радовалась их успехам.

Зарифа Азизовна была не только врачом-офтальмологом, но и физиологом, ученым с глубоко научным мышлением. Как физиолог, Зарифа Азизовна была членом оргкомитета XIV съезда физиологического общества. Эта общность научных интересов сближало нас еще больше.

**О.П.ДОБРОМЫСЛОВА,**
***профессор***
**2013 г.**

***

Zərifə Əziz qızının pedaqoji ustalığının zirvəsi isə onun iştirakı ilə 1985-ci ildə "Meditsina" nəşriyyatı tərəfindən 40 çap vərəqi həcmində buraxılan "Terapevtik oftalmologiya" kitabıdır. Burada dünya oftalmoloji təcrübənin yenilikləri öz əksini tapmışdır. Həmin nadir nəşr Moskvada, Azərbaycanda, Novokuznetskdə və Xarkovda oftalmologiyada terapevtik problemləri araşdıran Həkimləri Təkmilləşdirmə institutlarının göz xəstəlikləri kafedrasının professor-müəllim heyətinin birgə gərgin zəhmətinin məhsulu idi.

Professor Z.Ə.Əliyeva və səhiyyəyə təkcə görkəmli pedaqoq kimi şöhrət tapmamışdı. Eyni zamanda, o, fundamental elmi araşdırmaların müəllifi olan, tibb elminə nəhəng töhfələr vermiş, böyük erudisiyaya malik görkəmli alim kimi də geniş tanınırdı. Onun tədqiqatları geniş miqyası ilə seçilirdi. Alimin "Yaşla əlaqədar olaraq gözün və görmə-əsəb yollarının dəyişikliyi" adlı monoqrafiyası bunu bir daha sübut edir.

Sənaye oftalmologiyası üzrə professor Z.Ə.Əliyevanın yaratdığı silsilə əsərlər akademik M.İ.Averbax adına mükafat qazanmışdır. Zərifə xanım elmi-pedaqoji fəaliyyətinə görə "Azərbaycanın əməkdar elm xadimi" adına layiq görülmüşdür.

**N.B.ŞULPİNA,**
***professor, əməkdar elm xadimi***
**1998-ci il**



***

Həyatda mənim bəxtim gətirib. Belə ki, tale mənə qeyri-adi bir insanla ünsiyyətdə olmaq imkanı verib. Zərifə Əziz qızı Əliyeva ömrünün son günlərinədək mənim yaddaşımda məhz həyatda olduğu kimi qeyri-adi insan olaraq qalacaq. Zərifə xanım, hər şeydən əvvəl, həyat sevgisi və maraq dairəsinin böyüklüyü ilə fərqlənirdi: o, həkim-oftalmoloq sənətinin vurğunu idi, elmi tədqiqatlara çox vaxt sərf edirdi, o, oftalmologiyada yeni, çox çətin və az öyrənilən bir sahəni araşdırmış, bu tipli xəstəliklərin profilaktikasına və müalicəsinə böyük töhfə vermişdir. Zərifə Əziz qızı həyatda olduğu kimi, elmdə də özünə tapdanmış yol seçməmiş, elmin az öyrənilən, lakin inkişafı günün tələbi olan sahələrini araşdırmışdır.

Bir insan kimi Zərifə xanım haqqında xatirələri qələmə alarkən başa düşdüm ki, ötəri olaraq onun elmi fəaliyyəti ilə kifayətlənmək mümkün deyil. Həm insan, həm də alim kimi Zərifə xanımın ömrünün hər iki tərəfini ahəngdarlıq, uyarlıq təşkil edirdi. O hər şeydə istedadlı idi.

Zərifə Əziz qızı zəngin elmi irs qoyub getmişdir. "Şin istehsalında gözün patologiyası" monoqrafiyasına görə isə Zərifə xanım Tibb Elmləri Akademiyasının akademik Averbax adına mükafata layiq görülmüşdür.

**V.V.ŞMELYEVA,**
***akademik Filatov adına mükafatın laureatı***
**2006-cı il**

***

Zərifə Əliyeva həkimlik etikasının nümayişçisi idi. Akademik bütün fəaliyyəti boyu pasiyentlə tibbi etika anlayışlarını dialektik vəhdətdə götürmüşdür. Bu dialektikanın nüvəsini bir həqiqət təşkil edirdi: insan sağlamlığı ictimai sərvətdir. İnsanların gözünə nur vermək isə bəşəri humanizmdir.

Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi idi – insanı sağaltmaqla onu öz məninə qaytarmaq.

Zərifə Əliyeva insanlara xoş əməlləri ilə lazım olan mənalı həyat yaşayıb. Bu sözləri dahi Səməd Vurğun sanki Zərifə xanım barədə deyib: "Mən, sadəcə, istəyirəm ki, hər şey bizdə iz qoysun, istəyirəm ki, yüz yaşa qədər yaşaya bilməyənlər bir gününü on il kimi yaşasınlar". Zərifə xanımın insanlara nur bəxş edən hər mənalı günü xoş əməl naminə sərf olunmuşdur.

**Vaqif ABDULLAYEV,**
***siyasi elmlər doktoru***



***

Xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı hörmət hökm sürən bir ailədə dünyaya gəlmişdi Zərifə xanım. Atası Azərbaycan səhiyyəsinin təşkilində böyük xidmətləri olmuş professor Əziz Əliyev böyük nüfuz sahibi idi. Anası Leyli xanım İrəvanın ən əsilli-nəcabətli ailəsindən çıxmışdı. Belə bir ailədə tərbiyə aldığı Zərifə xanımın bütün hərəkətlərində, mülayim baxışında, insanlara qayğılı münasibətində özünü büruzə verirdi. Xalqa xidmət, imkansıza əl tutmaq, yıxılana arxa durmaq bu ailənin üzvləri üçün nəcib bir xidmət sayılırdı. Bu, daxili bir tələbat, adicə həyat tərzi idi. Ailə quranda da bu prinsiplərlə yaşayırdı. Tale elə gətirmişdi ki, elə özü kimi fədakar, ömrünü xalqına həsr etmiş bir adamla rastlaşmışdı. Özündən razılıq, xudbinlik ona tamam yad idi. Üzərində əməliyyat apardığı, gözlərinə işıq verdiyi xəstələr mehriban həkimlərinin şəfalı əllərindən çox onun məhəbbət dolu ürəyinə, qayğı dolu gözlərinə inanır, talelərini tərəddüdsüz Zərifə xanıma etibar edirdilər. Qazandığı hər müvəffəqiyyət, başqasına bəxş etdiyi səadət onun üçün tükənməz sevinc mənbəyinə, enerji qaynağına çevrilirdi. Orta boylu, zərif qamətli bu qadında əsl həkim üçün çox vacib olan başqasının ağrısını, kədərini duymaq, onu öz ürəyindən keçirmək bacarığı vardı...

**S.NƏCƏFOVA,**
***Respublikanın əməkdar jurnalisti***
**2003-cü il**

***

Zərifə Əliyeva kimya sənayesində göz zədələnmələrinin öyrənilməsi və profilaktikasına dair silsilə orijinal əsərlərinə görə M.İ.Averbax adına mükafata layiq görülmüşdü. O, respublikamızda Tibb Elmləri Akademiyasının belə yüksək bir mükafatına layiq görülmüş ilk qadın oftalmoloq idi.

Zərifə xanım bir alim kimi olduqca məhsuldar çalışırdı: tez-tez nitqlər, məruzələr, məlumatlar, məqalələrlə çıxış edirdi. Mən Zərifə xanımın çıxışlarını həmişə heyranlıq və fəxrlə dinləyirdim. Demək olar ki, bütün çıxışları yaddaşıma həmişəlik həkk olunub.

Zərifə xanım insanları çox sevirdi. Onların xeyirxahlığını, qayğıkeşliyini, qəlb hərarətini yüksək qiymətləndirirdi. Bu sevgisini insanlara paylamaqda da heç zaman xəsislik etmirdi. O, oftalmoloq həmkarlarının, həkimlərin, iş yoldaşlarının yaxınlaşması üçün təşəbbüslər göstərirdi. Həmin təşəbbüslərdən doğan ənənələr bu gün yaşayır.

Zərifə xanım qeyri-adi bir qadın idi. O heç də hamıya qismət olmayan böyük bir qabiliyyətin də sahibi idi. Bu, sevə bilmək qabiliyyəti idi. Həyatda nə edərdisə, sevgilə edərdi. Onun sevgisinin qüvvəsi öz ailəsinin hüdudlarında daha parlaq əks olunur, daha artıq duyulurdu. O, uşaqlarına, sonra isə nəvələrinə sevgisində



özünü unudurdu. Zərifə xanım Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin ləyaqətli ömür-gün yoldaşı, sədaqətli dostu, sevimli qadını və əqidə yoldaşı idi.

**Z.T.QULİYEVA,**
***professor***
**2003-cü il**

***

Zərifə xanım işgüzarlığı, xeyirxahlığı, qayğıkeşliyi, nəcibliyi, istiqanlılığı və qeyri-adi nikbinliyi ilə min adamın içində seçilirdi. Çexovun təbirincə desək, bu adamda hər şey gözəl idi – “həm zahiri, həm batini”. O əsl dost idi və yalnız şad günümüzdə deyil, həm də qəmli anlarımızda Zərifə xanım bizim hamımıza öz kömək əlini uzadırdı. O, nadir adamlara məxsus olan natiqlik qabiliyyətinə və söz duyğusuna malik idi.

Zərifə xanımın elmi fəaliyyəti, ilk növbədə, onun düzgün klinik düşüncəsinə və hakim intuisiyasına əsaslanırdı. O, çox oxuyur və həmişə tibbi yeniliklərdən, təbabətə dair təzə çap olunan ədəbiyyatlardan xəbərdar olurdu və istər alim, istərsə də həkim kimi düşüncələri də məhz dərin savadına əsaslanırdı.

Zərifə xanım xəstələrə qarşı olduqca diqqətli idi, onları səbrlə dinləyir, xahişlərinə, şikayətlərinə axıra qədər qulaq asırdı. O deyirdi: “Gərək həmişə özünü

xəstənin yerinə qoyasan, gərək xəstə həmişə həkimin yanından xoş duyğularla getsin".

Zərifə xanım özünəxas qayğıkeşliyindən əl çəkmir, insanların ehtiyaclarını başa düşür və həmişə özünü onların köməyinə çatdırırdı. Kim olmasından asılı olmayaraq, ondan ötrü insanın taleyi, xoşbəxtliyi hər şeydən irəli sayılırdı. O, insanın ruhunu tuta bilir, hər kəsin ürəyinə açar tapır, məsələlərin mahiyyətini anlamağı bacarırdı. Yüksək peşəkarlığı, hərtərəfli biliyi, sadəliyi və xeyirxahlığı oftalmoloqlar içərisində Zərifə xanıma dərin hörmət və nüfuz qazandırmışdı.

**N.M.ƏFƏNDİYEV,**
***professor***
**1993-cü il**

***

Zərifə Əliyeva böyük bir həyat yolu keçmiş, həkim-oftalmoloqdan Azərbaycan EA-nın akademiki, professor, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdirliyinə qədər yüksəlmişdi. O bütün bunlarla bərabər, həm də gözəl ictimai xadim idi.

Cazibədar, heyrətamiz insanlara xas olan sadəlik, genişürəklilik, xeyirxahlıq kimi keyfiyyətlər Zərifə xanımın şəxsiyyətində ahəngdar şəkildə qovuşmuşdu. İnsanlara intəhasız sevgi, onlarla ünsiyyətdə qeyri-adi sadəlik, yüksək mədəniyyət və ziyalılıq, həqiqətpərəstlik və doğruluq kimi xüsusiyyətləri sayəsində Zərifə xanım hər yerdə özünə dərin hörmət və məhəbbət duyğuları doğura bilirdi.



Zərifə xanımın şəxsiyyəti çoxcəhətli idi. O yalnız yüksək ixtisaslı həkim, hərtərəfli alim, görkəmli pedaqoq və ictimai xadim deyildi. Eyni zamanda, dərin musiqi savadına da malik idi, gözəl fortepiano çalır, oxuyurdu, incə yumor hissi vardı, hazırcavab və maraqlı müsahib idi. Yüksək müşahidə qabiliyyəti də vardı.

O yalnız təbabəti sevmirdi, incəsənətə və mədəniyyətə böyük sevgiylə yanaşar, teatrların bir premyerasını da buraxmaz, filarmoniyada keçirilən konsertlərdə iştirak edərdi. O, ahəngdar, hərtərəfli inkişaf etmiş nadir insanlarımızdan idi.

O mənim üçün yüksək mədəniyyət, ziyalılıq, düzlük, öz işinə sadiqlik, bütün bilik və bacarığını xalqına xidmət işinə yönəldən böyük bir İnsan obrazıdır.

**Q.M.NƏSRULLAYEVA,**
***professor***
**1998-ci il**

***

Zərifə xanım hamıya eyni dərəcədə diqqət və qayğı ilə yanaşırdı. Beynəlmiləlçilik onun səciyyəvi cəhəti idi. Zərifə xanım bir elmi rəhbər kimi əməkdaşların qarşısında konkret, yerinə yetirilə bilən, praktik əhəmiyyət daşıyan və perspektivli vəzifələr qoymaq bacarığı ilə fərqlənirdi. O özünə və tabeçiliyindəkilərə qarşı ciddi, tələbkar olmaqla yanaşı, həm də qayğıkeş və diqqətcil idi, işçilərin rəyinə hörmətlə yanaşır və onların işgüzar təşəbbüslərini hər vəchlə müdafiə edirdi.

Zərifə xanım həmişə təmkinli və səbirli olardı. Hətta nəyə görə isə qəzəblənəndə belə o heç zaman kobudluq etməzdi.

Zərifə xanımın başqa bir səciyyəvi və mənim üçün əziz olan cəhəti də sadəliyi, təvazökarlığı idi. Bəzən bu təvazökarlıq o yerə çatırdı ki, Zərifə xanım başqalarının yanında özünün qazandığı elmi, əqli və əxlaqi üstünlükləri üzə vurmazdı.

Xaraktercə mehriban və təmkinli olan bu insanın bir başqasına ən kəskin mənfi münasibəti onun zərif, xeyirxah yumoru və təbəssümündə öz ifadəsini tapırdı. Həmçinin o, əməksevər və təvazökar adamlara çox mehribanlıq göstərər, həmişə onların köməyinə çatmağa çalışardı. Zərifə xanımı fərqləndirən başqa bir cəhət də onun müxtəlif adamlarla ünsiyyətdə sadəliyi idi – dinləyiciləri ilə, həkimlərlə, əməkdaşlarla, professorlarla, akademiklərlə söhbətlərində Zərifə xanım onların ictimai mövqeyindən asılı olmayaraq, bütün adamlarla eyni dərəcədə nəzakət və hörmətlə davranırdı.



O, insanları çox yaxşı tanıyırdı. Bu keyfiyyət kadrların seçilməsində, eləcə də müxtəlif məsələlərlə əlaqədar ona müraciət edən adamlara münasibətində daha dəqiq təzahür edirdi. Əməkdaşlıq illərimiz onu mənim üçün unudulmaz bir insana çevirdi.

**M.Y.SULTANOV,**
***professor, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu göz xəstəlikləri kafedrasının müdiri***
**1998-ci il**

***

Zərifə Əliyeva göz xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda (ETİ) aspiranturaya girəndə mən artıq orada çalışırdım. Elə ilk tanışlığımızdan həm atasının layiqli qızı kimi, həm də bir dost kimi ona qəlbən bağlanmışdım.

Həmişə şən və həyatsevər olan Zərifə xanım bu şəraitdə də nikbinliyini qoruyub saxlayır, bizdən yaşca cavan olsa da, hamımıza ruhi qüvvə verirdi.

Zərifə xanımı diqqətcil və yüksək ixtisaslı həkim kimi çox sevirdilər. O özünün xeyirxah münasibəti ilə ümidsiz xəstələrin də ruhunu oxşaya bilirdi.

O, göz xəstəlikləri institutunun gözü idi. Zərifə xanımda olan ilahi istedad, ona xüsusi səy göstərmədən də kollektivdə xeyirxahlıq və qarşılıqlı anlaşma atmosferi yaratmağa imkan verirdi.

Zərifə Əliyevanın çap etdirdiyi monoqrafiyalar onun elmi fəaliyyətinin çoxcəhətliliyini nümayiş etdirir. Yaradıcılığının bu mərhələsi, yəqin ki, həmin kitabların həmmüəllifləri olan alimlərin xatirələrində hərtərəfli əks olunacaqdır. Mən bir şeyi dəqiq bilirəm ki, Zərifə xanımın şəxsində bizim oftalmologiya elmimiz insan sağlamlığının qorunması işində böyük töhfələr verən ən istedadlı bir alim qazanmışdı.

Zərifə xanım xəstələrə hədsiz diqqət göstərirdi, onlar da bunu anladıqlarından ona müdrik bir insan və qayğıkeş həkim kimi böyük hörmət bəsləyirdilər. Zərifə xanım bu sadəliyini və qayğıkeşliyini ömrünün axırına qədər qoruyub saxlamışdı.

Zərifə xanım bizi tərk etməklə nəinki yaxınlarını, doğmalarını (onsuz da onlar həmişə bu əziz qadının, ananın, bacının itkisini hiss edəcəklər), həm də bizi xeyirxah, həmişə qayğıkeş bir dost və yoldaşdan məhrum etdi. Onun əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq və biz çalışacağıq ki, sonrakı nəsillər onun başladığı bu xoşməramlı işləri davam etdirsinlər və oftalmologiyaya zəngin töhfələr vermiş bir insanı daim xatırlasınlar.

**Q.Ə.ADIGÖZƏLOVA-POLÇAYEVA,**
***professor***
**1998-ci il**

***

Zərifə Əliyeva məndən ötrü əlçatmaz dərəcədə böyük idi. O, oturuşu-duruşu ilə, görünüşü, davranışı ilə bizim üçün nümunə, örnək idi. O heç vaxt başqa böyüklər kimi kiçiklərə etinasızlıq göstərməzdi. Əksinə, bizimlə ünsiyyətdə sanki yaşını unudar və bizimlə həmyaşıd kimi davranardı. Bu da bizə qürur verərdi, hər şeyi onunla məsləhətləşər, həmişə onunla bir yerdə olmağa çalışardıq.

Zaman bütün hallarda öz həqiqi mahiyyətini qoruyub saxlayan əsl İnsanı dəyişdirməkdə acizdir. Zərifə Əliyeva belə insan idi – dərin zəkalı, eyni zamanda sadə və xeyirxah. Bir-birini əvəz etmiş illər onu dəyişdirmək qüdrətində deyildi – nə zahiri görünüşünü, nə zəngin daxili aləmini.

**T.Z.MAHMUDOVA,**
***Azərbaycanın xalq artisti***

***

Zərifə xanım elmin Olimpinə gedən yolda əvvəllər olduğu kimi sadə, təvazökar, qayğıkeş və xeyirxah idi. Burada, ilk növbədə, onun öz valideynlərindən aldığı tərbiyə, yüksək mədəniyyət və ziyalılıq keyfiyyətləri böyük rol oynayırdı.

Zərifə xanım da təbabət sahəsini özünə sənət seçəndən bu xarakteristikanı bütün ömrü boyu, adi həkim-ordinatordan akademikliyə qədər uzanan ağır və şərəfli yolda daim doğrultmuşdu. Bir xüsusiyyəti həmişə dəyişməz qalmışdı: heç zaman, heç bir yerdə şəxsiyyətini gözə soxmazdı. Mən bu barədə ona görə belə qəti əminliklə danışıram ki, Zərifə xanımı həm həmkarlarının dar çərçivəsində, həm xəstələr arasında, həm konfranslarda, plenumlarda, göz həkimlərinin qurultaylarında rəsmi şəraitdə dəfələrlə müşahidə etmək imkanım olub. O nəinki məni, bütün müraciət edənləri gülərüzlə dinləyib, yola salıb. Mənə təsir eləyən o idi ki, Zərifə xanım insanları yalnız dinləməklə qalmırdı, həm də onları eşitməyi bacarırdı. Nadir insanlara xas olan bu keyfiyyət də Zərifə xanıma atasından keçmişdi.

Filosoflardan hansısa deyib: "İnsanın xarakteri onun taleyini müəyyənləşdirir". Zərifə Əliyevanın taleyindən gileylənməyə haqqı yox idi. Çünki onun xarakteri də heyrətamiz idi. Onu yüksək vətəndaşlıq və peşəkar prinsipiallıq səciyyələndirirdi. İstər söhbətlərində, istərsə də məqalələrində – həmişə həkim və oftalmoloq düşüncəsinin təmizliyindən danışır, təəssübkeşliklə bu yolu müdafiə edirdi. O dönə-dönə bildirirdi ki, elmi-texniki tərəqqi dövründə həkimlərin mənəvi-əxlaqi keyfiyyətləri nəinki aşağı düşməməli, əksinə, daha da artmalıdır. Hər cür mənəviyyatsızlıq, ruhi eybəcərlik ona yabançı idi, belə hallar Zərifə xanımın gözünün düşməni idi.



Nisbətən qısa müddət ərzində Z.Ə.Əliyeva tibb elmi dairələrində geniş şöhrət qazanmışdı. Adama elə gəlirdi ki, bu artıq zirvədir. İndi daha sakitləşib istirahət etmək olar. Yox. O, əvvəlki kimi yenə də ideyalar, planlarla yaşayırdı. Həmişə elmi tədqiqatlara hərisliyi və gələcəyə baxmaq qabiliyyəti ilə seçilirdi. O bununla nəfəs alırdı.

**B.İ.VAYNŞTEYN,**
***tibb elmləri doktoru,***
***tibb xidməti polkovniki***
**1998-ci il**

***

Ölməzlik özündən sonra xoş xatirə qoyub getmək bacarığıdır. İnsan ümumbəşəri dəyərlərin tükənməz xəzinəsinə verdiyi töhfə ilə, sülhün, xeyirxahlığın, gözəlliyin və etibarın təntənəsinə qəti inamı ilə ölməzliyə qovuşur. Zərifə Əziz qızı Əliyevanın həyatı xalqa və insana xidmətin parlaq nümunəsidir.

Zərifə xanımın unudulmaz obrazını xatırlayarkən biz inanırıq ki, bu gözəl insan onu tanıyanların, sevənlərin və ona hörmət bəsləyənlərin xatirində əbədi yaşayacaqdır.

**A.Y.NƏCƏFOV,**
***professor***
**1998-ci il**

***

Doğrudur, Zərifənin xarakteri elə deyildi ki, hamını bir ucdan sevsin, hamıya lütf göstərsin. O, dostu düşməndən ayırmağı bacardığı kimi, adamların yaxşı və pis əməllərini də dəqiq fərqləndirirdi. Onun şəxsi düşmənləri yox idi, çünki o, ünsiyyət bağladığı, köməyə ehtiyac duyan hər bir kəsin qəlbinə yol tapmağı bacarırdı. O öz xarakterinə və ətrafındakılara mənəvi təsirinə görə adamlar arasında böyük nüfuza malik idi. Ancaq bu nüfuzundan sui-istifadə etməz, özünü gözə soxmaz, lovğalanmaz, mühakimələrini başqalarına zorla qəbul etdirməzdi. Cəsarətlə demək olar ki, onun başlıca düşməni biganəlik idi. Və Zərifə buna qarşı yorulmadan mübarizə aparırdı.

Zərifə deyirdi: "Xəstələr həkimin yanına pənah gətirəndə, onunla görüşmək istəyəndə, ona ərklə müraciət eləyəndə adam başa düşür ki, sən insanlara lazımsan, onlara köməyin dəyə bilər." Mən Zərifə xanım Əliyevanın özünü də belə diqqətcil, qayğıkeş, canıyanan, həssas bir həkim kimi tanıyırdım. O bizim xatirimizdə belə də qalmışdır.

Zərifə xanım bir alim kimi heç vaxt istehsalatla əlaqələrini qırmamışdı, həmişə öz elmi nəticələrini təcrübədə sınaqdan keçirərdi. O, tez-tez respublikanın iri sənaye müəssisələrində fəhlə və qulluqçular qarşısında çıxışlar edərdi. Buna görə də istehsalçılar arasında yaxşı tanınırdı.



Ölməzlik arzusu, ölməzlik düşüncəsi hər bir insana xasdır. Biz də istisna deyilik. Ancaq mənə elə gəlir ki, babalarımız "o dünyadakı" ömürdən, insanın ikinci həyatından danışanda onun fiziki mövcudluğunu deyil, mənəvi-ruhi yaşayışını nəzərdə tutublar. Yəni, mərhumlar da bizim yaddaşımızda buraxdıqları izlərlə, gördükləri əməllərlə, fikir və düşüncələri ilə bizim xatirimizdə yaşayırlar.

**A.S.İMAMƏLİYEV,**
***professor, tibb elmləri doktoru***
**1998-ci il**

***

Zərifə xanımla hər görüş onu tanıyanlara həqiqi sevinc gətirirdi. Elə birinci görüşdən insanlarda yaratdığı xoş təəssürat uzun illərin ünsiyyəti boyunca sabit qalar, dəyişməzdi. Çünki o, insanlara münasibətində sabitqədəm idi. Həmsöhbətini dinləmək, yerinə çatmamış hər hansı bir məsələdə nəticə çıxarmağa tələsməmək bacarığı, imdad istəyənlərin taleyində şüurlu və xeyirxah rol oynamaq onun şəxsiyyətinin səciyyəvi xüsusiyyətlərindən sayılırdı. O elə bir qadın idi ki, bütün müsbət keyfiyyətləri öz şəxsində ahəngdar bir tərzdə cəmləşdirə bilmişdi. Mənən o qədər zəngin idi ki, yüksək erudisiyası, mənəvi məziyyətləri, gözəllik duyğusu ilə hər kəsi heyrətə sala bilərdi. "İnsanda hər şey gözəl olmalıdır – qəlbi də, sifəti də, fikri-düşüncəsi də, geyimi də". Bu

məşhur kəlam sanki ondan ötrü deyilmişdi. İrili-xırdalı bütün görüşlərimiz ərzində mən bir şeyi dəqiq müəyyənləşdirmişdim ki, Zərifə xanımın gördüyü bütün işlərdə Xeyir başlanğıc nöqtəsi, əsas istinadgah idi. Onun təbiətinə xas olan ən mühüm cəhətlər xeyirxahlıq və humanizm, insanlara sevinc bəxş etmək arzusu idi.

Həddən artıq nizam-intizamlı, ciddi və özünə qarşı tələbkar idi, başqalarından da bunu umurdu. Mənəvi borc və məsuliyyət duyğuları onu bircə an da tərk etmirdi. Vədinə xilaf çıxmaq ona yad idi. Kifayət qədər nüfuzlu bir şəxsiyyət kimi, ətrafındakıların böyük hörmət və ehtiramını qazansa belə, həmişə özünü sadə və təvazökar tutardı. Başqalarının vaxtına qiymət verməyi da bacarırdı, ünsiyyətdə olduğu insanlarda yalnız yaxşı keyfiyyətləri görməyi də.

Mən Zərifə xanımı ölkənin görkəmli qadın alimləri arasında da müşahidə etmişdim. O, söhbəti peşəkar səviyyədə aparmağı da, sözün ən yüksək mənasında qadın olaraq qalmağı da bacarırdı.

Bu lətafətli qadın mənim yaddaşımda həm də ən çətin məqamlarda insana kömək əli uzada bilməsi ilə həkk olunub. O, insan kimi ömrünün mənasını bunda görürdü.

**T.Q.HÜSEYNOVA,**
***professor***
**2011-ci il**



***

Жизнь и деятельность академика Зарифы ханум Алиевой – целая эпоха, характеризующаяся значительными событиями, явлениями в офтальмологической науке. Она автор большого числа научных работ, монографий. Ее уникальный опыт клинициста, ученого, педагога был высоко оценен в Азербайджане и СССР. Она была избрана действительным членом Академии наук Азербайджана, почетным членом национальных ассоциаций офтальмологов многих стран, была удостоена премии имени М.М.Авербаха АМН СССР. Она пользовалась уважением и любовью офтальмологов Советского Союза.

Зарифе ханум было присуще чувство “нового” – все, что она видела во время своих зарубежных поездок, старалась внедрить в Азербайджане (методы экстракции катаракты и имилинтации иол, факоэмульсификации, антиглаукоматозные операции, новые микрохирургические операции и др.).

Зарифа ханум была житейски мудрым человеком. Основными принципами своего отношения к жизни она считала утверждения: старайся быть справедливым, приноси пользу людям, будь беско-

рыстным, доброжелательным к больному и человеку вообще, больной всегда прав, ставь себя на место больного, больной не должен видеть спешку.

**К.ТАГИБЕКОВ,**
***доцент кафедры офтальмологии Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева***
**2013 г.**

***

Onun özünə, başqalarına, xidməti vəzifəsinə bəslədiyi saf, tərtəmiz münasibəti, nadir insani məziyyətləri, istənilən mürəkkəb vəziyyətlərdə düzgün nəticələr çıxarmağa, hər hansı informasiyanı ani olaraq təhlil etməyə qadir qeyri-adi dərəcədə iti fəhmi və ağlı, fədakar vətənsevərliyi və bir sıra digər yüksək keyfiyyətləri hamını valeh edirdi. Biz – Zərifə xanımı yaxından tanıyanlar, yer üzündə belə gözəl insanlarla bizi rastlaşdırdığı üçün taleyimizə minnətdar olmalıyıq.

O, insanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yanlış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi. O, ağlagəlməz bir lütfkarlıq və səbirlə



həmsöhbətini dinləyərək, söylənənlərin əhəmiyyətsiz tərəflərini nəzakətlə qulaqardına vurar, diqqətini ən əsas və vacib məqamlara cəmləşdirərdi. İşinin həddindən artıq olmasına baxmayaraq, məsələləri ən xırda təfərrüatlara qədər yadda saxlayır, hadisələrin gedişini düzgün hesablamağı bacarırdı.

Onu xalqımızın fəxri olan görkəmli, məşhur Azərbaycan qadınlarının simvolu hesab edirəm. Bu ən gözəl, ən parlaq və ən böyük insan obrazıdır.

**A.M.MİRQASIMOV,**
***Azərbaycanın xalq rəssamı***
**1998-ci il**

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN HƏYATI, ELMİ-PEDAQOJİ VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Noraşen (indiki Şərur) rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.***

**1932-1942-ci illər** – Orta məktəbin şagirdi

**1942-1947-ci illər** – N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun tələbəsi.

**1949-1950-ci illər** – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda ordinator.

**1950-1953-cü illər** – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun aspirantı.

**1953-1957-ci illər** – Azərbaycan Elmı-Tədqiqat Oftalmologiya İnstitutunda həkim-elmi işçi.

**1957-1960-cı illər** – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda kiçik elmi işçi.



**1960-cı il** – "Traxoma xəstəliyinin sintomisinlə və onun başqa terapiya metodları ilə əlaqəli müalicəsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

**1960- 1967-ci illər** – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun böyük elmi işçisi.

**1967-ci ildən** – Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyasını öyrənən laboratoriyanın müdiri.

**1976-cı il** – H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

**1977-ci il** – SSRİ AAK-ın qərarı ilə tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

**1977-1979-cu illər** – Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasında əvəzedici professor.

| | |
|---|---|
| **1979-cu il** | – Azərbaycan SSR EA A.İ.Qarayev adına Fiziologiya İnstitutunun görmə üzvünün peşə patologiyası və fiziologiyası problemləri laboratoriyasının elmi rəhbəri. |
| | – AAK-ın qərarı ilə göz xastəlikləri kafedrası üzrə professor elmi adı verilmişdir. |
| | – Oftalmoloqların Ümumittifaq Elmi Cəmiyyəti İdarə Heyəti və Sovet Sülhü Müdafiə Komitəsinin üzvü seçilmişdir. |
| **1979-1982-ci illər** | – Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının professoru. |
| **1981-ci il** | – Kimya istehsalatında çalışanların görmə orqanının peşə patologiyası sahəsində tədqiqatlar silsiləsinə və "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə SSRİ Tibb Elmləri Akademiyasının qərarı ilə akad. M.A.Averbax adına mükafata layiq görülmüşdür. |



| | |
|---|---|
| **1982-ci il** | – Ə.Əliyev ad. Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri. |
| | – "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. |
| | – Ümumittifaq "Вестник офтальмологии" jurnalının redaksiya heyətinin üzvü. |
| | – Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü. |
| | – Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini. |
| | – Ə.Əliyev adına Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Geniş Elmi Şurasının və Baş Cərrahlar Elmi Şurasının üzvü. |
| | – Azərbaycan SSR-in Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. |
| | – Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. |
| **1983-cü il** | – Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir. |

**1985-ci il** – Moskva şəhərində vəfat etmişdir.

**1994-cü il** – Cənazəsi Moskvanın Novo-Deviçye qəbristanlığından Bakıya gətirilərək Fəxri xiyabanda dəfn olunmuşdur.



# ОСНОВНЫЕ ДАТЫ ЖИЗНИ, НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ И ОБЩЕСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ АКАДЕМИКА ЗАРИФЫ АЛИЕВОЙ

***Зарифа Азиз гызы Алиева родилась 27 апреля 1923 года в селе Шахтахты Норашенского района (ныне Шарур) Нахичеванской АССР.***

**1932-1942 гг.** – Ученица средней школы.

**1942-1947 гг.** – Студентка Азербайджанского государственного медицинского института им. Н.Нариманова.

**1950-1950 гг.** – Ординатор Азербайджанского научно-исследовательского института офтальмологии.

**1949-1953 гг.** – Аспирантка Азербайджанского научно-исследовательского института офтальмологии.

**1953-1957 гг.** – Врач – научный сотрудник Азербайджанского научно-исследовательского института офтальмологии.

**1957-1960 гг.** – Младший научный сотрудник Азербайджанского научно-исследовательского института офтальмологии.

**1960 г.** – Защитила диссертацию на соискание ученой степени кандидата медицинских наук на тему "Терапия трахомы синтомицином в комбинации его с другими методами лечения".

**1960-1967 гг.** – Старший научный сотрудник Азербайджанского научно-исследовательского института офтальмологии.

**1967 г.** – Доцент кафедры глазных болезней Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева.

**1976 г.** – Защитила докторскую диссертацию в Научно-исследовательском Институте глазных болезней им. Гельмгольца в г. Москве на тему: "Состояние органа зрения у работников ряда химических предприятий Азербайджана".



**1977 г.** – Решением ВАКа СССР присуждена ученая степень доктора медицинских наук.

**1977-1979 гг.** – И.о. профессора кафедры глазных болезней Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева.

**1979 г.** – Научный руководитель Лаборатории физиологии и профессиональной патологии органа зрения Института физиологии им. А.И.Караева АН Азерб. ССР.

– Решением ВАКа СССР от 23 марта 1979 г. присвоено ученое звание профессора на кафедре глазных болезней.

**1979-1982 гг.** – Профессор кафедры глазных болезней Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева.

**1981 г.** – Указом Президиума Академии медицинских наук СССР присуждена премия им. акад. М.А.Авербаха за цикл научных исследований в области профессиональной патологии органа зрения, внесших большой вклад в развитие офтальмологии и за монографию “Профессиональная патология глаз в шинном производстве”.

**1982 г.** – Заведующая кафедрой глазных болезней Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева.

– Награждена медалью “Ветеран труда”.

– Член редакционной коллегии Всесоюзного журнала “Вестник офтальмологии”.

– Член Всесоюзного научного общества офтальмологов.

– Член Президиума Всесоюзного научного общества офтальмологов.

– Награждена медалью “Отличник здравоохранения”.



– Член расширенного общего ученого Совета Азербайджанского государственного института усовершенствования врачей им. А.Алиева и главного хирургического ученого Совета.

– Присуждено почетное звание “Заслуженный деятель науки Азербайджанской ССР”.

– Заместитель председателя Азербайджанского Комитета Защиты мира.

– Награждена Орденом Трудового Красного знамени.

**1983 г.** – Избрана действительным членом АН Азербайджанской ССР.

**1985 г.** – Скончалась в г. Москве.

**1994 г.** – Прах ученого из Новодевичьего кладбища Москвы был перевезен в Баку и захоронен в Аллее почетного Захоронения.

# ƏSƏRLƏRİNİN BİBLİOQRAFİYASI

# БИБЛИОГРАФИЯ ТРУДОВ

## *Kitablar, broşyurlar*
## *Книги, брошюры*

### 1970

**1. Профилактика профзаболеваний в** йодной промышленности. – Баку: Азернешр, 1970. – 21 с.

### 1976

**2. Профилактика повреждений глаз** у рабочих резиновой промышленности. – Баку, 1976. – 11 с.

**3. Профилактика профзаболеваний в** йодной промышленности. – Баку: Азернешр, 1976. – 19 с.

### 1978

**4. Герпетические заболевания глаз.** – Баку, 1978. – 15 с.

**5. Острые вирусные конъюнктивы.** – Баку, 1978. – 17 с.

**6. Профилактика профессиональных заболеваний** в йодной промышленности. – Баку: Азернешр, 1978. – 44 с. – Совместно с И.И.Алекперовым, А.И.Замчаловым.



### 1979

**7. Герпетическая болезнь глаз:** учеб. пособие для врачей офтальмологов. – Баку: Азернешр, 1979. – 17 с.

**8. Острые вирусные конъюнктивиты:** учеб. пособие для врачей офтальмологов. – Баку: Азернешр, 1979. – 18 с.

### 1980

**9. Анатомо-физиологическая характеристика** гидродинамической системы глаза. – Баку: Азернешр, 1980. – 38 с. – Совместно с Н.Б.Шульпиной.

**10. Возрастные изменения глаза** и зрительно-нервного пути: морфогистохимические исследования. – Баку: Азернешр, 1980. – 124 с. – Совместно с П.С.Мелик-Аслановой.

**11. Профессиональная патология глаз** в шинном производстве. – Баку: Азернешр, 1980. – 128 с.

### 1981

**12. О моральном облике врача**. – Баку: О-во “Знание” АзССР, 1981. – 16 с.

**13. Офтальмопатология при хронической** йодовой интоксикации. – Баку: Азернешр, 1981. – 132 с.

## 1982

**14. Əgər sizdə kəskin** konyunktivitdirsə: yaddaş. – Bakı, 1982.

**15. Sovet həkiminin mənəvi** siması haqqında: "Sov. İKP XXVI qurultayı və tibb biliklərinin təbliğinin təkmilləşdirilməsi" mövzusunda Respublika elmi-praktiki konfransında oxunmuş məruzə. – Bakı: Azərb.SSR Bilik Cəmiyyəti, 1982. – 16 s.

**16. Высокое призвание: о врачебной** этике, чистоте души и помыслов советского врача / О-во "Знание" АзССР. – Баку, 1982. – 57 с.

**17. Заболевание глаз при** сахарном диабете / под. ред. Т.А.Алиева – Ташкент: Медицина, 1982. – 36 с. – Совместно с Н.Б.Шульпиной, М.Г.Марголис, Л.Н.Нудьга, И.В.Писарской.

**18. Об электронно-морфологических и гистохимических** методах лечения злокачественных внутриглазных опухолей: метод. рек. – Баку, 1982. – Совместно с П.С.Мелик-Аслановой, С.А.Бадаловым. С.М.Магомедовой.

**19. Основы иридодиагностики** / под. ред. Е.С.Вельховер, Н.Б.Шульпиной – Баку: Азернешр, 1982. – 189 с. – Совместно с Е.С.Вельховер, Н.Б.Шульпиной, Ф.Н.Ромашовым.

## 1983

**20. Актуальные проблемы офтальмологии** / под общ. ред. проф. Н.Б.Шульпиной. – Баку: Азернешр,



1983. – 341 с. – Совместно с Н.Б.Шульпиной, Л.К.Мошетовой.

**21. Конъюнктивиты и современные методы** лечения. – Баку: Азернешр, 1983. – 31 с.

**22. Современные методы хирургического** лечения слезотечения: метод. рек. – Баку: Азернешр, 1983. – 53 с. – Совместно с М.Ю.Султановым.

**23. Физиология слезоотведения.** – Баку: Азернешр, 1983. – 60 с. – Совместно с М.Ю.Султановым.

## 1984

**24. Современные аспекты туберкулеза** органа зрения. – Баку, 1984. – Совместно с Н.Б.Шульпиной, Н.С.Гонтуар.

## 1985

**25. Терапевтическая офтальмология** / под. ред. М.Л.Краснова, Н.Б.Шульпиной. – М.: Медицина, 1985. – 560 с. – Совместно с Н.Б.Шульпиной, В.И.Боришполец, В.М.Гасилиной, Н.С.Гонтуар, Г.В.Грачевой.

## 1986

**26. Профилактика и лечение повреждений** глаз при хроническом воздействии на организм паров стирола и тетрахлорэтилена: метод. рекомендации / М-во здравоохр. АзССР; АН АзССР. – Баку, 1986. – 15

с. – Совместно с М.Ю.Султановым, С.А.Талышской, Т.А.Мирзоевым, Н.С.Тагизаде.

1987

**27. Щадящая хирургия слезоотводящих** путей. – Баку: Азернешр, 1987. – 61 с. – Совместно с М.Ю.Султановым.

1988

